AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 36 (1381), 4 - 10 sentyabr 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*




## Tokio-2020 Olimpiadasının məşəli alovlandırılacaq

Yaponiyanın paytaxtı Tokioda keçiriləcək XXXII Yay Olimpiya Oyunlarının məşəli 2020-ci il martın 11-də alovlandırılacaq. Bu barədə Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax məlumat verib.

Yunanıstanda alovlandırılacaq məşəl sonra Yaponiyaya aparılacaq və burada 2011-ci ildə baş vermiş zəlzələ və sunami faciəsindən ən çox zərər çəkən Fukuşima, İvate və Miyaqi yaşayış məntəqələrində nümayiş olunacaq.

Olimpiya məşəli Yaponiyada 121 gün gəzdiriləcək.

## Monakoda “Bakı-2019” UEFA Avropa Liqasının loqosu təqdim olunub




Avqustun 31-də Monakoda “Bakı-2019” UEFA Avropa Liqasının loqosunun təqdimatı olub.

Loqoda UEFA Avropa Liqasının kuboku Bakının lokal xüsusiyyətlərini əks etdirən ecazkar arxitektura nümunələrinin fonunda təsvir olunub. Loqonun dizaynında Azərbaycan Dövlət Akademik Filarmoniyası, Alov Qüllələri, Qız qalası, Heydər Əliyev Mərkəzi və Hökumət Evi kimi məşhur tikililərin təsvirindən istifadə olunub. Loqonun brendinqi Avropa qitəsini və Azərbaycanın paytaxtı Bakı şəhərini əhatə edəcək yarışın dinamik təbiətini və coğrafi xüsusiyyətlərini tərənnüm edir.

Azərbaycan dünyada “Odlar Yurdu” kimi tanınır. Buna görə də loqoda “A” hərfi alov dilimləri formasında oyularaq dizayn edilib.

“Buta” naxışı isə milli geyimlərimizdə, xalçaçılıqda, eləcə də toxuculuq sənayesində çox istifadə edilir. Bundan ilhamlanaraq, UEFA Avropa Liqası üçün gələcəkdə müxtəlif dizayn işlərində istifadə edilə biləcək xüsusi “Buta” naxışı hazırlayıb.

“Bakı-2019” finalı üçün yeni mövsümün başlanğıcında təqdim edilən əsas dizayn elementlərindən də istifadə olunaraq hazırlanmış xüsusi loqo Bakı şəhərinin qədim və müasir xüsusiyyətlərini əks etdirir. Avropanın gələcək futbol turnirlərində və yarışlarında, eləcə də müxtəlif təqdimatlarda və reklam işlərində loqonun daha da təkmilləşdirilməsi qarşıya qoyulan məqsədlərdəndir.

Yeni loqonun brendinqi UEFA-nın marketinq tərəfdaşlığı, həmçinin TEAM Marketinq AG və Turquoise brendinq agentliklərinin əməkdaşlığı ilə hazırlanıb.

## *Ağırlıqqaldırma üzrə yığmamız Buenos-Ayres-2018-ə daha bir lisenziya əldə edib*

Azərbaycanın ağırlıqqaldırma üzrə yeniyetmə oğlanlardan və qızlardan ibarət yığma komandası Argentinanın paytaxtı Buenos-Ayresdə keçiriləcək Yeniyetmələrin III Olimpiya Oyunlarına daha bir lisenziya əldə edib.

Bu barədə Beynəlxalq Ağır Atletika Federasiyasından AAAF-a daxil olan məktubda məlumat verilib.

Lisenziyanın bir qız idmançı üçün nəzərdə tutulduğunun vurğulandığı məktubda qeyd olunub ki, Oyunların təsnifat mərhələsi sisteminə əsasən boş yerlərə yenidən idmançıların təyinatı həyata keçirilib. Bunun nəticəsində Azərbaycana əlavə bir lisenziyanın verilməsi qərara alınıb.

Ötən ilin aprelində Tailandda keçirilmiş ağırlıqqaldırma üzrə yeniyetmələr arasında dünya birinciliyində oğlanlardan ibarət yığma komandamız ümumi sıralamada doqquzuncu yeri tutaraq Olimpiya Oyunlarına bir lisenziya əldə etmişdi. Bu dəfə isə qızlardan ibarət komandamızın bir üzvünə şans verilib. Beləliklə, ağırlıqqaldırma üzrə milli komandamızın lisenziyalarının sayı ikiyə çatıb.



## Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına 30 gün qalır

## Gənc gimnastımız beynəlxalq turnirdə bürünc medal qazanıb

Bədii gimnastımız Yelizaveta Luzan Bolqarıstanın Varna şəhərində bədii gimnastika üzrə beynəlxalq turnirdə bürünc medal qazanıb.

Fərdi proqramda çıxış edən gənc idmançımız lentlə hərəkətlərə görə hakimlərdən 13.900 xal alaraq, fəxri kürsünün III pilləsinə yüksəlib. Gimnastımız çoxnövçülükdə dördüncü, halqa, top və gürzlərlə çıxışlarına görə isə altıncı nəticə göstərib.

Azərbaycan millisinin digər gimnastı Məryəm Səfərova isə çoxnövçülükdə 9-cu yerdə qərarlaşıb.

Qeyd edək ki, beynəlxalq turnirdə 15 ölkədən 200-ə yaxın gimnast iştirak edib.

## Anons


*Bakıda FİG-in konqresi olacaq*

“Qarabağ”ın “Sportinq”lə başlayan yolu “Emirates”də sona çatacaq

Gimnastika üzrə məşqçilik kursları təşkil edilib

*7 zəka sahibimiz dünya reytinqinin ilk yüz şahmatçısı arasında*

Səh. 2

*Yığmamız Serbiya və Hollandiya komandaları ilə oynayacaq* Səh. 4

Poloçularımız Avropa çempionatında yarışacaqlar Səh. 4

Köhnə rəqiblər yenidən eyni qrupda üz-üzə gələcəklər Səh. 7


## Növbəti Qran-Prinin tarixi açıqlanıb




2019-cu ildə Bakıda keçiriləcək Formula-1 Azərbaycan Qran-Prisinin tarixi açıqlanıb. Gələn il yarış aprelin 28-də keçiriləcək.

Qeyd edək ki, ötən il aprelin 27-dən 29-dək Bakıda keçirilən Formula-1 Azərbaycan Qran Prisinin qalibi “Mersedes” komandasının pilotu Luis Hamilton olub.


AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU


*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

## Validеynlər uşaqların sağlam həyat tərzində xüsusi rol oynayır

Səh. 5

## ABŞ Dünya Antidopinq Agentliyini Rusiyanın hüquqlarını bərpa etməməyə çağırıb



ABŞ Antidopinq Agentliyinin baş direktoru Trevis Tayqart Dünya Antidopinq Agentliyini (DAA) Rusiyanın hüquqlarını bərpa etməməyə çağırıb.

Qeyd olunub ki, 2015-ci ildə Rusiya Antidopinq Agentliyinin statusu “Soçi-2014” Olimpiya Oyunlarında idmançıların dopinqdən istifadə etməsində dövlət dəstəyi sisteminin mövcudluğu ittihamı ilə dondurulmuşdu.

Tayqart bildirib ki, hazırda Rusiya ilə DAA arasında fikir mübadiləsi davam edir. Onun sözlərinə görə, yol xəritəsində göstərilən şərtlər yerinə yetirilmədiyi halda DAA-nın Rusiya Antidopinq Agentliyinə statusunu qaytarması hadisələrin 180 dərəcə dəyişməsi deməkdir. Bu addım DAA-ya etimada və vicdanlı rəqabətə inanan milyonlarla idmançının ümid və arzularına sarsıdıcı zərbə olacaq.

Tayqart hesab edir ki, BOK prezidentinin bu bəyanatı DAA İcraiyyə Komitəsinin sentyabrın 20-də Seyşel adalarında keçiriləcək iclasında Rusiya Antidopinq Agentliyinin hüquqlarının bərpası üçün zəmin ola bilər. ABŞ Antidopinq Agentliyinin baş direktoru əlavə edib: “Ümid edək ki, bu qərar qəbul olunmayacaq, lakin əks halda biz idmançıların ruhdan düşməsinə imkan verməmək və onların təmiz idmana inamını qorumaq üçün səylərimizi əsirgəməyəcəyik”.

## *Olimpizm*



### Tomas Bax: “Dopinqlə mübarizə aparmaq çox çətindir”

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Baxın fikrinə görə, idmanda həmişə dopinqə yer olub.

“Dopinqlə mübarizə aparmaq çox çətindir. Bu, elə bir müharibədir ki, sonunda qələbə görünmür. Dopinqlə mübarizədə ən təhlükəli məqam isə heç bir günahı olmayan təmiz idmançıların cəzalandırılmasıdır”- deyə BOK prezidenti etiraf edib.

### İndoneziya olimpiadaya ev sahibliyi etmək istəyir

İndoneziya hökuməti 2032-ci ildə keçiriləcək Yay Olimpiya Oyunlarına ev sahibliyi etmək istəyir.

Bu barədə ölkə prezidenti Coko Vidodo Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Baxla görüşündə bildirib.

“Ötən il ölkəmizdə keçirilən Asiya Oyunlarının təcrübəsindən çox şey öyrəndik. Biz olimpiadaya ev sahibliyi edə bilərik”, - deyə İndoneziya prezidenti deyib. Onun sözlərinə görə, beynəlxalq mütəxəssislər Cakarta və Palembanqda təşkil edilən yarışların səviyyəsini çox yüksək qiymətləndiriblər.

BOK prezidenti Tomas Bax isə öz növbəsində bildirib ki, İndoneziya Olimpiada-2032-yə ev sahibliyi hüququnu qazanmaq imkanına malikdir.

Məlumat üçün bildirək ki, İndoneziyanın ev sahibliyi etdiyi Asiya Oyunlarında dünyanın 45 ölkəsindən 16 min idmançı iştirak edir. Növbəti yay olimpiadaları 2020-ci ildə Tokioda, 2024-cü ildə Parisdə, 2028-ci ildə isə Los-Ancelesdə təşkil ediləcək.

### Afrikada antidopinq laboratoriyası yaradıldı

Ümumdünya Antidopinq Agentliyi (WADA) Nayrobidə (Afrika) özünün yeni laboratoriyasını açıb. Keniya antidopinq laboratoriyası Şərqi Afrikada qanın analizi üzrə fəaliyyət göstərən ilk təşkilat olub.

WORLD ANTI-DOPING AGENCY

Laboratoriya ölkənin Keniya Atletika Federasiyası, İAAF və Lancet Group East Afrika qurumları ilə əməkdaşlıq şəratində çalışacaq.

Laboratoriya avqust ayından fəaliyyətə başlayıb.



# Bakıda FİG-in konqresi olacaq

Azərbaycan Gimnastika Federasiyası bu il dekabrın 2-3-də Beynəlxalq Gimnastika Federasiyasının (FİG) konqresinə ev sahibliyi edəcək. Tədbirdə 115 ölkənin iştirak gözlənilir.

Beynəlxalq tədbirin hazırlıq planı və konqresin keçiriləcəyi məkanla tanış olmaq məqsədilə, FİG-nin baş katibinin müavini Nikolya Bompan və FİG-nin təhsil-məşqçilik proqramının meneceri Oliviya Billi-Pena bugünlərdə ölkəmizdə səfərdə olublar. Səfər zamanı Azərbaycan Gimnastika Federasiyasının (AGF) nümayəndələri ilə görüş keçirən qonaqlar konqres çərçivəsində Prezident Komissiyası, İcraiyyə Komitəsi və Texniki Komitələrinin iclaslarının keçirilməsi ilə yanaşı, bir sıra texniki məsələləri də müzakirə ediblər.

Bundan əlavə, FİG-nin fəaliyyətinə yeni daxil edilmiş parkur idman növünün inkişaf etdirilməsi məqsədilə, konqresdən sonra, 4-5 dekabr tarixində nəzəri və təcrübi mərhələdən ibarət olacaq məlumat xarakterli kursların təşkili də nəzərdə tutulub. Bununla bağlı olaraq, FİG-nin nümayəndələri kursların keçiriləcəyi "Ocaq Sport Klubu"nun zalına baş çəkərək, oradakı şəraitlə tanış olublar.

## Gimnastika üzrə məşqçilik kursları təşkil edilib

Azərbaycan Gimnastika Federasiyasının təşkilatçılığı ilə Bakıda aerobika gimnastikası üzrə Beynəlxalq Gimnastika Federasiyası (FİG) Akademiyasının 1-ci dərəcəyə aid məşqçilik kursları təşkil edilib.

Həm nəzəriyyə, həm də təcrübə hissələrindən ibarət olan kurslarda biomexanika, anatomiya və psixologiya mövzuları üzrə təlimlər FİG-nin mütəxəssisləri Olqa Kiseloviçova (Slovakiya), Desislava Boquşeva (Bolqarıstan) və aerobika gimnastikası üzrə millimizin baş məşqçisi və eyni zamanda FİG-nin mütəxəssisi Mariyan Kolev tərəfindən keçirilib. 7 gün davam etmiş kurslarda 10 yerli məşqçi - Vladimir Dolmatov, Aleksandra Qorobçuk, Emil Quliyev, Nərminə Hüseynova, İmran İmranov, Cəmilə İsmayılova, Mələk Kərimova, Elçin Məmmədov, Alfiya Mantova və Firuzə Sadıqova ilə yanaşı, Ukrayna, Rusiya və Özbəkistandan gəlmiş 5 məşqçi də iştirak edib. Seminarın son günü keçirilmiş imtahan nəticələrinə əsasən, bütün iştirakçılar kursları müvəffəqiyyətlə başa vuraraq, məşqçilik üzrə ilkin - 1-ci beynəlxalq dərəcəyə yiyələniblər.



## Qrup komandamız birinci oldu

Rusiyanın Kazan şəhərində bədii gimnastika üzrə dünya çempionatından əvvəl (11-16 sentyabr, Bolqarıstan) "Challenge" seriyasından sonuncu dünya kuboku yarışları keçirilib.

Beynəlxalq yarışda ölkəmizi qrup proqramında təmsil edən Aliyə Paşayeva, Siyana Vasileva, Ayşən Bayramova, Diana Doman və Zeynəb Hümmətova 2 ip və 3 topla icra etdikləri kompozisiyaya görə 20 iştirakçı ölkə idmançıları arasında finala çıxmağı bacarıblar. Qızlarımız final çıxışında isə 19.750 xalla 7-ci yerdə qərarlaşıblar.

Məlumat üçün bildirək ki, il ərzində keçirilən "Challenge" seriyasından bütün dünya kuboku yarışlarının yekun xallarına əsasən Azərbaycanın qrup hərəkətləri komandası 2 ip və 3 topla hərəkətlərdə çıxışlarında qalib adını qazanıblar.



# "Qarabağ"ın "Sportinq"lə başlayan yolu "Emirates"də sona çatacaq

*Azərbaycan çempionu hansı favoritin qənimi olacaq?*

Avqustun 31-də Monakoda UEFA Avropa Liqasının qrup mərhələsinin püşkü atılıb. Mərasim Azərbaycan futbolu üçün böyük maraq kəsb edib. Belə ki, Azərbaycanı qitə yarışlarında təmsil edən yeganə klubumuz "Qarabağ"ın rəqibləri müəyyənləşib. "Qarabağ" "E" qrupunda İngiltərənin "Arsenal", Portuqaliyanın "Sportinq", Ukraynanın "Vorskla" klubu ilə yer alıb. Ötən mövsüm UEFA Çempionlar Liqasında mübarizə aparan Azərbaycan təmsilçisi eyni uğuru təkrarlaya bilməyib. Buna baxmayaraq ölkə çempionu ilk dəfə olaraq qitənin nüfuzunu görə qitənin ikinci klub turnirində iştirak etmək hüququ qazanıb. "Qarabağ"ın "E" qrupunda uğurlu çıxışı barədə hələ ki, heç bir söz demək olmaz. Ötən ilə nisbətən bir qədər zəif olan klubumuz növbəti mərhələ şansları çox az görünür. Çünki Avropanın iki tanınmış klubu - "Arsenal" və "Sportinq"in imkanları daha böyükdür. "Arsenal" son illərdə ölkə və beynəlxalq turnirlərdə uğursuz çıxış etməsinə baxmayaraq, güclü heyətə malikdir. "Topçular"ın heyətində dünya və Avropa çempionu olan futbolçular çıxış edir. Aleksander Lakazett, Pyer-Emerik Obemeyanq, Məsud Özil, Aaron Remsi kimi məhsuldar futbolçulara qarşı çıxış etmək "Qarabağ" üçün asan olmayacaq. Lissabon "Sportinq"i də "Qarabağ" üçün çətin rəqiblərdən sayılır. Keçirdiyi görüşlərdə sona qədər mübarizə aparan və böyük hesablı qələbələrdən arxayınlaşmayan portuqaliyalılardan ehtiyatlanmaq lazımdır. "Qarabağ"ın oyunçuları Nani, Fredi Montero, Rafinya kimi futbolçulara qarşı diqqətli olmalıdır. "Vorskla" isə ölkə təmsilçimiz üçün "sürpriz" rəqib ola bilər. Ölkə çempionatında "Dinamo" və "Şaxtyor" kimi güclü rəqibləri ilə görüşdə layiqli mübarizə aparan "Vorskla" çətin ki, qrupda özünü aciz göstərsin. Heyətində Yuri Kolomonets, Vladislav Kulaç, Mixaylo Sergiyçuk kimi tanınmayan, lakin hər an qol vura bilə futbolçular var. Bütün bunları nəzərdən qaçırmaq olmaz. Çempionlar Liqasına nisbətən zəif yarış olan Avropa Liqasında "Qarabağ" qrupda ikinci yeri tuta bilər. Məlumat üçün bildirək ki, "Qarabağ" ilk görüşünü səfərdə keçirəcək. Qurban Qurbanovun komandası ilk görüşünü sentyabrın 20-də "Joze Alvalede"də "Sportinq"ə qarşı keçirəcək. Azarkeşlərin maraqlı gözlədiyi "Qarabağ"-"Arsenal" matçı isə oktyabrın 4-də Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək.

"Qarabağ"ın E qrupunda keçirəcəyi görüşlərin təqvimi:

**20 sentyabr**

**23:00. "Sportinq" - "Qarabağ"**
*"Joze Alvalade" stadionu*

**4 oktyabr**

**20:55. "Qarabağ" - "Arsenal"**
*Tofiq Bəhramov adına Respublika Stadionu*

**25 oktyabr**

**20:55. "Qarabağ" - "Vorskla"**
*Tofiq Bəhramov adına Respublika Stadionu*

**9 noyabr (yerli vaxtla 8 noyabr)**

**00:00. "Vorskla" - "Qarabağ"**
*Aleksey Butkovski adına stadion*

**29 noyabr**

**20:55. "Qarabağ" - "Sportinq"**
*Tofiq Bəhramov adına Respublika Stadionu*

**14 dekabr (yerli vaxtla 13 dekabr)**

**00:00. "Arsenal" - "Qarabağ"**
*"Emirates" stadionu*

Qeyd edək ki, Avropa Liqasının finalı 2019-cu il mayın 29-da Bakı Olimpiya Stadionunda (BOS) təşkil olunacaq. "Qarabağ"ın ev oyunlarının da həmin stadiona salınmaq ehtimalı var.

# Badmintonçumuz Ukraynada gümüş medal qazandı

Ukraynanın Xarkov şəhərində keçirilən badminton üzrə "RSL Kharkiv International 2018" turnirinə yekun vurulub. "International Challange" kateqoriyalı turnirdə ölkəmizi təmsil edən Edi Reski Dviçayo kişi badmintonçuların şəxsi yarışında uğurlu çıxış ilə yadda qalıb. Mübarizəyə əsas mərhələdən qoşulan badmintonçumuz yarışın finalınadək irəliləməyi bacarıb. Dviçayo həlledici görüşdə çexiyalı Yan Louda ilə qarşılaşıb. Görüş çexiyalı badmintonçunun 2:0 hesablı qələbəsi ilə başa çatıb. Beləliklə, turniri ikinci pillədə başa vuran Edi Reski Dviçayo yarışın gümüş medalını qazanıb. Bu, Azərbaycanın "International Challenge" kateqoriyalı badminton turnirlərində ilk medalıdır.

Turnirə təsnifat mərhələsindən start verən Ezmi Qovimuramadhoni isə mübarizəni 1/8 finalda dayandırıb.

"RSL Kharkiv International 2018" turnirində 35 ölkədən 202 badmintonçu medallar uğrunda mübarizə aparıb.






## Stolüstü tennis üzrə seminar-kurs yekunlaşdı

Avqustun 27-dən 31-dək Azərbaycan Stolüstü Tennis Federasiyası tərəfindən kiçik yaşlı uşaqlarla məşqlərin aparılması üçün nəzərdə tutulan seminar-kurs təşkil olunub. Milli yığma komandanın məşqçiləri tərəfindən aparılmış seminar-kurs 5 gün davam edib.

Federasiyanın məqsədi bu kimi tədbirlərlə bədən tərbiyəsi müəllimlərini və digər idman mütəxəssislərini stolüstü tennisə cəlb etməklə bu idman növündə mütəxəssislərin və kütləviliyin artırılmasına nail olmaqdır.

Kursun tələblərini yerinə yetirən 4 idman mütəxəssisinə müvafiq sertifikat təqdim olunub

## 7 zəka sahibimiz dünya reytinqinin ilk yüz şahmatçısı arasında



Beynəlxalq Şahmat Federasiyasının (FİDE) sentyabrın 1-nə olan reytinq cədvəli dərc edilib. Klassik şahmat üzrə reytinqin ilk iyirmiliyinə altı azərbaycanlı zəka sahibi daxildir.

Norveçli Maqnus Karlsen (2839) yenidən reytinq cədvəlinə başçılıq edir. ABŞ təmsilçisi Fabiano Karuana (2827) ikinci, azərbaycanlı qrossmeyster Şəhriyar Məmmədyarov (2820) isə üçüncü yeri tutur.

Şahmatçılarımız Teymur Rəcəbov (2751) on yeddinci, Arkadi Naydiç (2721) iyirmi səkkizinci, Rauf Məmmədov (2699) qırx altıncı, Eltac Səfərli (2676) altmış beşinci, Qadir Hüseynov (2667) yetmiş dördüncü yerdədir.

Qadın şahmatçıların reytinq cədvəlində Azərbaycanın bir təmsilçisi yer alıb. Günay Məmmədzadə 2438 reytinqlə otuz üçüncü yeri tutur.

Zərif cinsin nümayəndələri arasında ilk üçlüyə çinli Tszyun Ventszyun (2561), Hou İfan (2658) və rusiyalı Aleksandra Kostenyuk (2559) daxildir.

## Futvolleyçilərimiz "Moscow Futvolley Open" turnirində yarışıblar

Moskvada təşkil olunan futvolley üzrə açıq beynəlxalq turnirdə Azərbaycan yığması da iştirak edib.

Komandamızı Fəyyar Hüseynov və Namiq İsgəndərov təmsil ediblər.

"Moscow Futvolley Open" turnirində 10 komanda iki qrupda mübarizə aparıb. Dörd oyun keçirən yığmamız Konqo və Rusiya-1 komandalarına qalib gəlib, İsrail və Rusiya-2 kollektivlərinə isə məğlub olaraq qrupda üçüncü yeri tutub. Beləliklə, futvolleyçilərimiz yarışda mübarizəni dayandırıblar.

Qeyd edək ki, finalda İsrail və Rusiya-1 komandaları qarşılaşıb. Gərgin idman mübarizəsi şəraitində keçən görüşdə İsrail seçməsi çempion adını qazanıb.



## "Bakı" komandası yarışlara Mingəçevirdə hazırlaşır

Kişi həndbolçulardan ibarət "Bakı" komandası avrokuboklara və 26-cı Azərbaycan çempionatına hazırlığı davam etdirir.

Komandanın üzvləri avqustun 24-də təlim-məşq toplanışı üçün Mingəçevirə gediblər. "Kür" Olimpiya İdman Mərkəzində keçiriləcək təlim 12 gün davam edəcək.

## Komandamız III Dünya Köçəri Oyunlarında

Sentyabrın 2-də Qırğızıstanda, İssık-Kul gölünün sahillərində III Dünya Köçəri Oyunları start götürüb. Oyunlarda etnoidmanın 37 növü üzrə yarışlar keçirilir. Bu yarışlarda 80 ölkədən 3 mindən artıq idmançı iştirak edir.

Yarışlarda Azərbaycan da geniş tərkibli nümayəndə heyəti ilə təmsil olunur.

III Dünya Köçəri Oyunlarına sentyabrın 8-də yekun vurulacaq.

Xatırladaq ki, I Dünya Köçəri Oyunları 2014-cü ildə, II Oyunlar isə 2017-ci ildə İssık-Kulda keçirilib.

## Cüdoçular İranda mübarizə aparıblar

Avqustun 30-31-də İranın Sarab şəhərində cüdo üzrə beynəlxalq turnir keçirilib. Yarışda 7 komandanı təmsil edən idmançılar, o cümlədən Azərbaycan cüdoçuları mübarizə aparıblar. Məşqçi İbadulla Şahbanovun rəhbərliyi ilə "Kano" klubunun yetirmələri tatami üzərinə çıxıblar. Onlardan 66 kq çəki dərəcəsində Əli Yusubov, 73 kq çəki dərəcəsində isə Qadir İbrahimov bürünc medala sahib çıxıblar.



# C Ü D O

## 133 ölkənin iştirakçıları



Bakıda 828 cüdoçu tatami üzərinə çıxacaq.

Dünya çempionatında ölkəmizi 9 kişi və 6 qadın cüdoçu təmsil edəcək.

Dünya çempionatının təntənəli açılış mərasimi sentyabrın 20-də saat 15:00-da keçiriləcək.

## Dünya çempionatının promo-videoçarxı təqdim olunub

Bakıda keçiriləcək cüdo üzrə dünya çempionatı ilə bağlı promo-videoçarx hazırlanıb. Beynəlxalq Cüdo Federasiyasının (İJF) rəsmi saytında yerləşdirilən videoda Azərbaycan böyük enerji resurslarına və zəngin mədəniyyətə malik olmaqla yanaşı, Odlar Yurdu və Cüdo Yurdu kimi təqdim olunur. “Cüdo ulduzları sentyabrda Azərbaycanda ilin ən böyük idman tədbiri sayılan dünya çempionatında qarşılaşa bilərlər. Bizə qoşulun ki, cüdoçuların idman dəyərlərindən necə dərs keçdiklərini, Odlar Yurdunun həm də Cüdo Yurdu olduğunu görəsiniz” deyə vurğulanır.

## Gender bərabərliyi üzrə ilk konfrans Bakıda keçiriləcək

Beynəlxalq Cüdo Federasiyasının (İJF) gender bərabərliyi üzrə komissiyası cüdoda qadın və kişilər arasında bərabərlik məsələlərinə dair ilk konfransını Bakıda təşkil edəcək.

Tədbir dünya çempionatı ərəfəsində qurumun yarışlar üzrə meneceri Liza Allanın rəhbərliyi altında gerçəkləşəcək.



Konfransa İJF prezidenti Marius Vizerdən əlavə, rumıniyalı deputat Rozalia-İbolya Biro, Xorvatiya Cüdo Federasiyasının prezidenti Sanda Çorak, Avstraliya Cüdo Federasiyasının prezidenti Keyt Korkeri, yaponiyalı Akiko Amano, braziliyalı Yuko Fuji, kosovolu Driton Kuka və Maylinda Kelmendi, avstriyalı Sabrina Filzmoser və digər şəxslər iştirak edəcəklər.

Sentyabrın 19-da “Hilton” hoteldə keçiriləcək konfrans saat 16:30-da start götürəcək və 19:00-dək davam edəcək.




## Komandamız dünya çempionatına Hollandiyada hazırlaşır

Bakıda keçiriləcək dünya çempionatına hazırlaşan Azərbaycan cüdoçuları Hollandiyanın Arnem şəhərində beynəlxalq təlim-məşq toplanışında iştirak edirlər. Yığmamız “Papendal” milli təlim mərkəzində hazırlıq prosesi keçir. Toplanışda Azərbaycan yığması ilə yanaşı, 37 ölkədən 500-dən çox idmançı iştirak edir. Bu toplanış Bakıda keçiriləcək dünya çempionatına hazırlıq məqsədi daşıyır.

## Açılış mərasimində Al Bano çıxış edəcək

İtaliyalı məşhur müğənni Al Bano Bakıda keçiriləcək cüdo üzrə dünya çempionatının açılış mərasimində iştirak edəcək.



75 beş yaşlı müğənni Beynəlxalq Cüdo Federasiyasının (IJF) dəvəti ilə ölkəmizə gələcək. O, sentyabrın 20-də Milli Gimnastika Arenasında keçiriləcək açılış mərasimində konsert verəcək.

“Felicita” mahnısı ilə dünyada məşhurlaşan Al Bano ötən il Budapeştdə keçirilmiş dünya çempionatının açılış mərasimində IJF-nin himnini oxuyub və konsert proqramı ilə çıxış edib.

Al Bano Karrizi 2001-ci ildən BMT-nin xoşməramlı səfiridir.

## İngiltərə millisinin dünya çempionatı üçün heyəti açıqlanıb

Cüdo üzrə İngiltərə milli komandasının sentyabrın 20-də Bakıda start götürəcək dünya çempionatı üçün heyəti açıqlanıb.

Yığmanın tərkibinə 14 cüdoçu daxil edilib. Onlardan 3-ü kişilərin, 9-u qadınların fərdi yarışlarında iştirak edəcək. Daha 2 kişi cüdoçu isə bu idmançılarla birgə qarışıq yarışlarda iştirak üçün nəzərdə tutulub.

Komandanın üzvləri arasında 2012-ci il London Yay Olimpiya Oyunlarının iştirakçısı Denni Uilyams, Rio Olimpiadasının bürünc mükafatçısı Selli Konvey, həmçinin 2017-ci ildə Budapeştdə keçirilmiş dünya çempionatının bürünc medalçıları Nekoda Smit-Devis və Natali Pauell də var.

İyirmi doqquz yaşlı Denni Uilyams 2011-ci ildən sonra ilk dəfə dünya çempionatında çıxış edəcək. Çelsi Gilz, Keti Cemima Yits-Braun və Uesli Qrinic isə ilk dəfə dünya çempionatında mübarizə aparacaqlar.

Qeyd edək ki, Milli Gimnastika Arenasında keçiriləcək dünya çempionatına sentyabrın 27-də yekun vurulacaq.

* * *

Avqustun 20-dən 25-dək Tunisdə Beynəlxalq Cüdo Federasiyasının təşkilatçılığı ilə yeniyetmə cüdoçular üçün təlim-məşq toplantısı keçirilib. 5 gün davam edən toplanışda bu ilin oktyabr ayında Argentinanın Buenos-Ayres şəhərində keçiriləcək Yeniyetmələrin Olimpiya Oyunlarına lisenziya qazanan cüdoçular iştirak ediblər. Azərbaycanı Tunisdə yeniyetmə cüdoçu Vüqar Talıbov və milli komandanın məşqçisi Zaur Babayev təmsil edib. Məşqləri Olimpiya və üçqat dünya çempionu İlias İliadis və Olimpiya çempionu Mark Huizinqa aparıb.

Qeyd edək ki, Yeniyetmələrin Olimpiya Oyunlarında cüdo yarışları oktyabrın 7-10-da keçiriləcək.

* * *

Azərbaycan Cüdo Federasiyası tərəfindən mütəmadi olaraq məşqçi-müəllimlər və hakimlər üçün seminarlar təşkil olunur. Növbəti belə bir tədbir Qəbələdə keçirilib.

Azərbaycan Cüdo Federasiyasının təşkilatçılığı ilə ölkə birinciklərini idarə edən hakimlər, eləcə də “Şimal bölgəsi” regionunun məşqçi və müəllimləri



üçün seminar keçirilib. Seminarda Hakimlər Komitəsinin üzvləri Tərlan Həsənov, Telman Əhmədli, beynəlxalq dərəcəli hakimlər Mətin Rəhimli, Arzu Acalova iştirak ediblər.

Seminarda gün ərzində həm nəzəri, həm də tatamidə praktiki məşğələlər keçirilib.

# Cüdo mütəxəssisləri dünya çempionatı ilə bağlı nə düşünürlər?

***Beynəlxalq aləmdə özünün idman uğurları ilə seçilən Azərbaycan yaxın günlərdə növbəti bir mötəbər idman yarışına - cüdo üzrə dünya çempionatına ev sahibliyi edəcək. Sentyabrın 20-28-də Milli Gimnastika Arenasında keçiriləcək bu möhtəşəm yarışda Azərbaycan idmançıları ilə yanaşı, dünyanın ən güclü tatami ustaları mübarizə aparacaq. Təcrübəli cüdo mütəxəssisləri ilə əlaqə saxlayıb, artıq sayılı günlər qalan dünya çempionatı ilə bağlı onların fikirlərini öyrəndik. Dünya çempionatı barədə danışan mütəxəssislərimiz nəticələrlə bağlı proqnozlarını da bizimlə bölüşdülər.***

## “Dünya çempionatı həmişə sürprizlərlə dolu olur”

**Elnur Məmmədli, Olimipiya çempionu, Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti:**



- Əvvəlcə, onu demək istəyirəm ki, biz çox böyük bir uğura imza atmışıq. Cüdo üzrə növbəti dünya çempionatının Bakıda təşkil olunması dövlətimizin idmanın inkişafına göstərdiyi diqqət və qayğının nəticəsidir. Biz bununla fəxr edirik. O ki, qaldı idmançılarımızın çıxışlarına, onlara uğurlar arzu edirəm. Təcrübəmə əsasən deyə bilərəm ki, qonaqlara nisbətən görüşlər bizim tatami ustalarımız üçün iki qat çətin olacaq. Çünki yarış doğma divarlar arasında keçiriləcək. Görüşləri Azərbaycan Respublikasının Prezidenti, federasiya nümayəndəri izləyəcək. Bu, çox böyük məsuliyyətdir. İdmançılarımızla tez-tez görüşür, onlara öz məsləhətlərimi verirəm. İnanıram ki, cüdoçularımız etimadları doğruldacaqlar. Konkret kimlərin medal qazanacağını deyə bilmərəm. Dünya çempionatı həmişə sürprizlərlə dolu olur. Əsas odur ki, komandamız uğurlu nəticə göstərsin.

## “Bu, doğrudan da, böyük uğurdur”

**Ağayar Axundzadə, Azərbaycan Cüdo Federasiyasında yarışların təşkili və keçirilməsi komitəsinin sədri:**

- Əvvəlcə onu deyə bilərəm ki, bu, doğrudan da, böyük uğurdur. Əgər növbəti dünya çempionatının keçirilməsi Azərbaycana həvalə olunursa, deməli, bizim tatami ustalarımız artıq beynəlxalq arenalarda tanınırlar. Əslində, burada təəccüblü bir şey yoxdur. Danılmaz faktdır ki, Azərbaycanda bir cüdo məktəbi var. Nazim Hüseynov, Elnur Məmmədli, Mövlud Mirəliyev, Mehman Əzizov, Elxan Məmmədov, Elmar Qasımov, Rüstəm Orucov, Kifayət Qasımova və bu kimi onlarla Olimpiya, dünya və Avropa çempionları, mükafatçıları məhz bu məktəbin yetirmələridirlər. Ancaq etiraf etməliyik ki, Yaponiyanın, Rusiyanın da çox güclü cüdoçuları var. Milli komandamızın bu böyük yarışa tam məsuliyyətlə hazırlaşdığına inanıram. Ümid edirəm ki, cüdoçularımız qazandıqları nəticələrlə bu idman mübarizəsinə ev sahibliyinin təsadüfi olaraq Azərbaycana həvalə edilmədiyini göstərəcəklər.



## “Dünya çempionatının Bakıda keçirilməsi artıq bizim üçün bayramdır”

**Tərlan Həsənov,**
**Əməkdar məşqçi:**



- Cüdo üzrə növbəti dünya çempionatının bizim vətənimizdə, paytaxt Bakıda keçirilməsi çox möhtəşəm hadisədir. Bu haqda çox danışmaq olar. Düşünürəm ki, bu hadisə bütün idmançılar, xüsusilə də cüdoçular üçün əsl bayramdır. Elə ona görə də bütün cüdosevərləri təbrik edirəm. Belə mötəbər bir idman yarışına ev sahibliyi etməyimiz məsuliyyətimizi artırır. İdmançılarımıza inanıram. Yəqin ki, onlar layiqli şəkildə çıxış edəcəklər. Dünya çempionatının Bakıda təşkil olunması artıq bizim üçün qələbədir. Əgər cüdoçularımız da uğurlu nəticələr əldə etsələr bu, artıq iki qat qələbə olacaq.

## “73 kq və 100 kq-da şanslarımız daha çoxdur”

**Hacıağa Hacıəhmədov, Azərbaycan Cüdo Federasiyasında məşqçilər komitəsinin sədri:**



- Vaxtilə kişilərdən ibarət milli komandamızın baş məşqçisi vəzifəsində çalışmışam. Yəni müəyyən qədər idmançılarımızın bacarıqlarına, xarakterlərinə bələdəm. Düşünürəm ki, 73 kq-da və 100-kq da şanslarımız daha çoxdur. Belə ki, birinci çəkidə Hidayət Heydərovla Rüstəm Orucovdan ən azı biri mükafatçı ola bilər. 100 kq çəkidə isə Elmar Qasımov və Elxan Məmmədovun şansları böyükdür. Lakin qadın cüdoçularımız barəsində dəqiq bir söz deyə bilmərəm. Hazırda dünya çempionatı ərəfəsində son yarışlar, təlim-məşq toplanışları keçirilir. Komandamızın bir hissəsi yarışlara Belarusun paytaxtı Minskdə hazırlaşıb. İnanıram ki, çəkilən əziyyətlər öz nəticəsini verəcək.

## “Kişilərin şansları qızlara nisbətən daha çoxdur”

**Tərlan Poladov, Regionlarda cüdonun inkişafı üzrə sektor müdiri:**



- Bu cür yarışlar haqqında qabaqcadan proqnoz vermək çətin olur. Çünki rəqiblər həm güclü, həm də çox olurlar. Təbii ki, hər birimiz bu yarışda komandamızdan medal gözləyirik. Lakin medalların əyarlarının necə olacağını deyə bilmərəm. Əlbəttə, kişilərin şansları qızlara nisbətən daha çoxdur. Hətta mən deyərdim ki, kişilərin hər biri, xüsusilə də 73 kq çəki dərəcəsində mübarizə aparan Rüstəm Orucov və Hidayət Heydərov mükafatçılar sırasında olmağa real namizəddirlər. Buna baxmayaraq, vurğulamalıyam ki, dünya çempionatı elə yarışdır ki, burada heç bir nəticəyə təəccüblənmək olmaz. Hər şey mümkündür. Ola bilsin ki, bizim böyük ümidlər bəslədiyimiz idmançı adi bir səhvə görə uduzsun. Cüdoda, xüsusilə də bu cür gərgin mübarizələrdə ən adi səhvlər belə, bağışlanmır. Komandamıza uğurlar arzu edirəm.

## “Bizim borcumuz onlara psixoloji kömək olmaqdır”

**Telman Əhmədli,**
**respublika dərəcəli hakim:**



- Cüdoçularımızın çıxışlarını müntəzəm izləyirəm. Mənə elə gəlir ki, əvvəlki illərə nisbətən indi bu komandada müəyyən qədər yorğunluq var. Sanki nəticələr də azalıb. İnanıram ki, bu, müvəqqətidir. Çünki söhbət ölkəmizdə öz kütləviliyi ilə seçilən, gün-gündən inkişaf edən cüdo idman növündən gedir. Milli komandanın məşqlərində iştirak etmədiyimə görə dəqiq bir söz deyə bilmərəm. Lakin, əvvəlcə, bir vətəndaş, sonra isə cüdo mütəxəssisi kimi idmançılarımıza uğurlar arzulayıram. İndi onların psixoloji köməyə, azarkeş dəstəyinə çox ehtiyacları var. Bizim də borcumuz onlara psixoloji kömək olmaqdır.

*Kənan Novruzov*

# İdman dırmanması üzrə “Gömrükçü” İdman Klubunun açıq beynəlxalq birinciliyi keçirilib

Avqustun 26-da “ClimBaku” Dırmanma Mərkəzində Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyası, eləcə də, Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin “Gömrükçü” İdman Klubunun təşkilatçılığı ilə idman dırmanması üzrə kiçikyaşlı yeniyetmələr arasında “Gömrükçü” İdman Klubunun açıq beynəlxalq birinciliyi keçirilib. Yarışda Azərbaycan idmançıları ilə yanaşı, Rusiya, Türkiyə, İran, və Gürcüstanın 8 klubundan 30-dək idmançı mübarizə aparıblar. İdman dırmanmasının çətinlik növü üzrə oğlan və qızlar arasında keçirilən yarışda Azərbaycanın “Gömrükçü” İK, “Kyanite” İK, Türkiyə Dağçılıq Federasiyasının A və B komandaları, Rusiyanın ÇSKA, İranın “Zanjan Climbing House”, Gürcüstanın “Tbilisi S.K. Lucky” və “Nigozia Climbers” klubları mübarizə aparıblar.



Yarışın açılış mərasimində Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin baş direktoru Xəzər İsayev, Azərbaycan Gənclər və İdman Nazirliyinin sektor müdiri Aydın Məmmədov, Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının vitse-prezidenti Arzu Mustafayev, Türkiyə Dağçılıq Federasiyasının prezidenti Ersan Başar iştirak ediblər.

Açılış mərasimində çıxış edən Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti, DGK İSM-ın baş direktoru Xəzər İsayev Prezident İlham Əliyevin ölkəmizdə idmanın inkişafına göstərdiyi yüksək diqqət və qayğıdan danışıb. O dırmanma idman növünün Olimpiya Oyunlarının proqramına daxil edildiyini, bu idman növündə ölkəmizdə kütləviliyin təmin olunması istiqamətində görülən işlərdən söz açıb. Xəzər İsayev bu növ üzrə yeniyetmə yaş qrupu üzrə beynəlxalq yarışın ilk dəfə təşkil olunduğunu, bu yarışın gələcəkdə ənənə halını alacağına ümidvar olduğunu bildirib.

Qeyd olunub ki, yarışın keçirilməsi əlamətdar bir günə - Azərbaycanın Birinci vitse-prezidenti, birinci xanım Mehriban Əliyevanın doğum gününə təsadüf edir. Dövlət Gömrük Komitəsi rəbərliyi və idman dırmanması üzrə yarış iştirakçıları adından Azərbaycanın Birinci vitse-prezidenti, birinci xanım Mehriban Əliyevaya təbrik müraciəti ünvanlanıb.

Sonra Azərbaycanın dövlət himni səsləndirilib, çempionat açıq elan edilib.

Klubun Şaolin idman növü üzrə təmsilçilərinin nümunəvi çıxışlarından sonra yarışlar final mərhələsi ilə davam edib. Gərgin keçən mübarizənin yekununda qaliblər müəyyənləşib.

Ümümi hesabda Rusiya komandası 1 qızıl, 1 gümüş medalla birinci, İran komandası bir qızıl medalla ikinci, Azərbaycan komandası bir gümüş medalla üçüncü pillədə qərarlaşaraq kuboka layiq görülüb.

Oğlanlar arasında yarışın mükafatçıları:
1. Amir Ahmadi (İran, “Zanjan Climbing House”)
2. Sergey Olxovoy (Rusiya, ÇSKA)
3. Kerem Talha Kaya (Türkiyə A komandası)

Qızlar arasında yarışın mükafatçıları:
1. Darya Viktorovskoya (Rusiya, ÇSKA)
2. Mədinə Abdullayeva (Azərbaycan, “Gömrükçü”İK)
3. Mariya Konovalova (Gürcüstan, “S.K. Lucky” İdman Dırmanması Klubu)

# XVI Yay Paralimpiya Oyunlarına hazırlıq məsələləri müzakirə edilib

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsində (ARMPK) qurumun prezidenti İlqar Rəhimovun rəhbərliyi ilə müşavirə keçirilib.

Müşavirədə 2020-ci ildə Yaponiyanın paytaxtı Tokioda keçiriləcək XVI Yay Paralimpiya Oyunlarına hazırlıqla əlaqədar komitənin 2017-2020-ci illər üçün Strateji Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi məqsədilə görülmüş işlər və qarşıda duran vəzifələr geniş müzakirə edilib.

Müzakirələrin yekununda müvafiq qərarlar qəbul olunub.

* * *

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin (ARMPK) prezidenti İlqar Rəhimovun müvafiq əmri ilə regionlarda paralimpiya hərəkatının sürətli inkişafını və seleksiya işlərinin aparılmasını təmin etmək, həmçinin paralimpiya dəyərlərinin cəmiyyət arasında təbliğini gücləndirmək məqsədilə Gəncədə Komitənin regional bölməsi yaradılıb.

Bölmə Gəncə də daxil olmaqla, Göygöl, Samux, Şəmkir, Daşkəsən, Gədəbəy, Tovuz, Ağstafa və Qazax rayonlarında fəaliyyət göstərəcək. Paralimpiya çempionu Ramil Qasımov ictimai əsaslarla Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin Gəncə regional bölməsinin müdiri vəzifəsinə təyin edilib.

* * *

Almaniyada keçirilən Avropa çempionatında uğurla çıxış edən Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin (ARMPK) atletika idman növü üzrə milli komandası vətənə qayıdıb.




Komandamız Berlindəki yarışda dörd atletlə təmsil olunub.

Millimizin üzvlərindən Oloxan Musayev və Samir Nəbiyev qitə çempionatında yığmamızın aktivinə iki gümüş medal yazdırıblar.

# Tanınmış Əməkdar jurnalist dünyasını dəyişdi

Azərbaycan futbol ictimaiyyətinə ağır itki üz verib. Uzun sürən xəstəlikdən sonra Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) əməkdaşı, Azərbaycan Respublikasının əməkdar jurnalisti Abas Əzim oğlu Əzimov ömrünün 82-ci ilində dünyasını dəyişib.



Əzimov Abas Əzim oğlu 19 dekabr 1936-cı ildə Bakı şəhərində anadan olub. Bakı Neft Texnikumunda oxuduğu illərdə (1956-1959) “Dinamo” cəmiyyətində əməkdar məşqçi Əfqan Səfərovun rəhbərliyi altında atletika ilə məşğul olmağa başlayıb. Həmin illərdə orta ixtisas məktəbləri arasında keçirilən spartakiadalarda iştirak edib, 5000 və 10000 metr məsafələrə qaçanlar arasında mükafatalayiq yerlər tutub. 1967-ci ildə Azərbaycan Dövlət Universitetini bitirib. Ali məktəb tələbələri arasında keçirilən yarışlarda da uğurla çıxış edib, fəxri fərmanlarla təltif edilib. Abas Əzimov Azərbaycan və Bakı çempionatlarında “Dinamo”nun şərəfini qoruyub. Universitetdə oxuduğu illərdə yüngül atletika üzrə hakimliyə başlayıb. 1962-ci ildə respublika, 1969-cu ildə isə ümumittifaq dərəcəli hakim adını qazanıb. 1980-ci ildə Moskvada keçirilən XXII Yay Olimpiya Oyunlarında hakimlik edib. Yaxşı hakimliyinə görə Olimpiadanın xatirə medalına layiq görülüb. Bundan əlavə, Avropa çempionatı, Avropa Kuboku, “Dostluq-84” və bir çox beynəlxalq turnirlərdə hakimlik edib. Abas Əzimov 1964-cü ildən SSRİ Jurnalistlər İttifaqının üzvü olub. 1962-ci ildən 1997-ci ilədək Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində idman proqramları redaksiyasında müxtəlif vəzifələrdə çalışıb. 1995-ci ilin idman yekunlarına görə Abas Əzimov ilin ən yaxşı idman jurnalisti seçilib. 1997-ci ildən Beynəlxalq İdman Jurnalistləri Assosiasiyasının (AİBS) üzvü olub. O, 2008-ci ildə Azərbaycan Respublikasının əməkdar jurnalisti adına layiq görülüb. “Neftçi - 70”, “Futbolumuzun futzal salnaməsi”, “Xatirələrdə yaşayanlar” və “Azərbaycan Milli Komandası” kitablarının müəllifidir. 1997-ci ilin aprelindən Azərbaycan Futbol Federasiyaları Assossiasiyasında çalışırdı.

Allah rəhmət eləsin!

# Güləş komandamız İranda 3-cü oldu

İranın Arak şəhərində yeniyetmə sərbəst güləşçilər arasında keçirilən “Yadigar İmam Cup” beynəlxalq turnirinə yekun vurulub.

Yarışda 9 komanda iki qrupda mübarizə aparıb. Ölkəmizi beynəlxalq turnirdə məşqçilər Vahid Məmmədov və Abil İbrahimovun rəhbərliyi altında çıxış edən millimiz qrupda Rusiyaya (2:8) uduzsa da, İraq (10:0) və İran-3 (8:2) komandalarına qalib gələrək ikinci yeri tutub. Komandamız İran yığmasının 2-ci komandasını (7:3) də məğlub edərək xatirə turnirinin bürünc medalını qazanıb. Finalda Rusiyanı üstələyən İran-1 kollektivi kubokun sahibi olub.

Qeyd edək ki, görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Tural Əliyev təmsil edib.

# Yığmamız Serbiya və Hollandiya komandaları ilə oynayacaq

Azərbaycanın voleybol üzrə qadınlardan ibarət yığması Yaponiyada keçiriləcək dünya çempionatına hazırlıq çərçivəsində Mariborda məşqləri davam etdirir.

Komandamız Sloveniyada bir neçə yoxlama görüşü keçirməyi planlaşdırır. İlkin məlumata görə, voleybolçularımızın rəqibləri Bakıda Avropa çempionatının finalında çıxış etmiş Serbiya və Hollandiya komandaları ola bilər.

Xatırladaq ki, yığmamızın hücumçusu Natalya Məmmədova komandaya qoşulub. O, Yaponiyada keçiriləcək dünya çempionatına hazırlığın birinci mərhələsində, habelə bu yaxınlarda Antalyada keçirilmiş “Gloria Cup” turnirində iştirak etməyib. Həmin turnirdə yığmamız üçüncü yeri tutub.




* * *

Voleybol üzrə kişilərdən ibarət Azərbaycan millisi Avropa çempionatının seçmə mərhələsində növbəti oyununu keçirib.

“G” qrupunda mübarizə aparan yığmamız Bakıda Yunanıstan komandası ilə qarşılaşıb.

Voleybol Mərkəzində keçirilən görüş millimizin 2:3 (25:20, 25:22, 22:25, 18:25, 5:15) hesablı məğlubiyyəti ilə başa çatıb.

Bu oyundan sonra Fərid Cəlalovun yetirmələri qrupda 5 xalla ikinci yerdədir. 11 xalı olan Yunanıstan qrupun lideridir. İsveç komandası 4 xalla üçüncü, Lüksemburq 1 xalla sonuncu pillədədir.

Xatırladaq ki, gələn il yanvarın 5-də keçiriləcək növbəti oyunda Azərbaycan yığması Lüksemburqu qəbul edəcək. Bu qarşılaşmadan dörd gün sonra isə voleybolçularımız səfərdə İsveç yığmasının qonağı olacaqlar.

Qrup mərhələsinin nəticələrinə görə, yeddi qrupun hər birində ilk yeri tutacaq komandalar Avropa çempionatının final mərhələsinə birbaşa vəsiqə qazanacaqlar. İkinci yeri tutacaq altı milli isə qalan beş vəsiqə uğrunda mübarizə aparacaq.

# Poloçularımız Avropa çempionatında yarışacaqlar

Beynəlxalq Polo Federasiyasının və İtaliyanın Atçılıq İdmanı Federasiyasının birgə təşkilatçılığı ilə sentyabrın 20-dən 30-dək İtaliyanın Siena şəhərində Avropa birinciliyi keçiriləcək. Turnirdə Avstriya, Almaniya, Fransa, Hollandiya, Slovakiya, İspaniya, İsveçrə, İrlandiya, İtaliya və Azərbaycan yığma komandaları iştirak edəcəklər.

Polo üzrə Azərbaycan yığma komandası ilk dəfə iştirakçısı olacağı Avropa çempionatına hazırlıq üzrə təlim-məşq toplanışlarını yekunlaşdırıb. Almaniyada keçirilən təlim-məşq toplanışlarında milli yığmamız peşəkar və təcrübəli klub komandaları ilə sparrinq qarşılaşmaları keçirib, idmançılarımız qitə birinciliyi ərəfəsində zəruri oyun təcrübəsi əldə ediblər. Hazırda Bakıda səfər öncəsi son məşqlərini keçirməkdə olan milli komandamızın Avropa çempionatında əsas hədəfi ən yüksək pillə uğrunda mübarizə aparmaqdır.



Elçin Quliyev Polo üzrə Azərbaycan yığma komandasının üzvləri ilə görüşüb.

Görüşdə yığma komandanın Avropa birinciliyinə hazırlıq vəziyyəti müzakirə olunub.

Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) prezidenti, general-polkovnik Elçin Quliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərdiyi diqqət və qayğı nəticəsində atçılıq idman növlərinin son illər böyük inkişaf yolu keçdiyini, xüsusən polo sahəsində önəmli nəticələrin əldə olunduğunu qeyd edib. 2015-ci ildə Bakıda keçirilmiş Arena Polo üzrə Avropa birinciliyində millimizin qələbəsinin Avropanın aparıcı polo komandalarını yığmamıza hörmətlə yanaşmağa və Azərbaycan idmançıları ilə görüşlərə ciddi hazırlaşmağa məcbur etdiyi vurğulanıb.

ARAF-ın baş katibi Bəhruz Nəbiyev milli komandanın üzvlərinin səfəri ilə əlaqədar təşkilati məsələlər barədə məlumat verib.

Yığmanın məşqçisi Namiq Orucov komandanın qitə birinciliyinə hazırlığının vəziyyəti barədə məlumat verib. O, idmançılar üçün yaradılmış şəraitə, Almaniyada təşkil olunmuş təlim-məşq toplanışlarına görə minnətdarlığını bildirib.

ARAF-ın prezidenti Elçin Quliyev yığma komandanın səfəri ilə əlaqədar zəruri tapşırıq və tövsiyələrini verib, idmançılara Avropa birinciliyi kimi mötəbər turnirdə Azərbaycan Respublikasının üçrəngli dövlət bayrağını ucaltmaq şərəfini yaşamağı arzu edib.

* * *

Azərbaycan Respublikası Atçılıq Federasiyası (ARAF) Binə Atçılıq Mərkəzində yerləşən hippodromda cıdır yarışı keçirib.

Dörd qaçışdan ibarət cıdır yarışında dörd yaş Qarabağ və Dilbaz atları 2400 metr məsafədə qrup üzrə “Derbi”, üç yaş ingilis atları 2400 metr məsafədə qrup üzrə “Derbi”, iki yaş ingilis atları 1400 metr məsafədə, dörd yaş və yuxarı ingilis atları isə 2400 metr məsafədə qrup üzrə ARAF kuboku uğrunda güclərini sınayıb.

Dörd yaş Qarabağ və Dilbaz atlarının “Derbi” qaçışında jokey Azər Əliyev “Dəmir” ləqəbli atla birinci yerin (3:01.064) və “Derbi” kubokunun sahibi olub. Jokey Hilal Nəzərov “Netron” ləqəbli atla ikinci yerə (3:02.671), jokey Rauf Tahirov “Şahmar” ləqəbli atla üçüncü yerə (3:07.130) çıxıb.

Üç yaş ingilis atlarının “Derbi” qaçışında jokey Hilal Nəzərov “Bahr” ləqəbli atla birinci yerə (2:37.680) və “Derbi” kuboka layiq görülüb. Jokey Azər Əliyev “Atilla” ləqəbli atla ikinci yeri (2:39.646), jokey Orxanbəy Hacıyev “Prince” ləqəbli atla üçüncü yeri (2:39.772) tutublar.

Dörd yaş və yuxarı ingilis atlarının qaçışında jokey Hilal Nəzərov “Majestic Warrior” ləqəbli atla birinci pilləyə yüksəlib (2:37.977) və ARAF kubokunu qazanıb. Jokey Rauf Tahirov “Şəfəqim” ləqəbli atla ikinci yerdə (2:38.047), jokey Orxanbəy Hacıyev “Butsefal” ləqəbli atla üçüncü yerdə (2:38.277) qərarlaşıb.

İki yaşlı ingilis atlarının yarışında jokey Hilal Nəzərov “Mismambo” ləqəbli atla birinci yeri (1:33.137), jokey Orxanbəy Hacıyev “Matilda” ləqəbli atla ikinci yeri (1:34.466), jokey Azər Əliyev “Quida” ləqəbli atla üçüncü yeri (1:35.744) tutub.

* * *

“Sərhədçi” atçılıq idman klubunun açıq manejində atçılığın konkur növü üzrə “Sərhədçi kuboku” turniri keçirilib.

Yarış “E”, “M” və “S” kateqoriyaları üzrə təşkil olunub. “Sərhədçi kuboku” uğrunda mübarizədə Azərbaycanın müxtəlif atçılıq klublarının yeniyetmə və yetkin yaş qrupları üzrə idmançıları iştirak ediblər.

“E” kateqoriyası üzrə maneələrinin hündürlüyü 80-85 santimetr olan yarışda birinci yerə “A.Clinteus” ləqəbli atla Atçılıq məktəbinin idmançısı Səməd Əliverdiyev yüksəlib. İkinci yeri “Gilas” ləqəbli atla “Sərhədçi” klubunun idmançısı Dünyamalı Qurbanbəyov, üçüncü yeri “Emily Du Barbour” ləqəbli atla “Omar” klubunun idmançısı Nurlan Rüstəmov tutublar.

“M” kateqoriyası üzrə maneələrinin hündürlüyü 120-125 santimetr olan yarışda ilk pilləyə “David” ləqəbli atla “Sərhədçi” klubunun idmançısı Seyid Musayev sahib olub. “Elite Horse and Polo Club”un idmançısı Kənan Novruzov “Valonka” ləqəbli atla ikinci, “Sərhədçi” klubunun idmançısı Seyid Musayev isə “Concorde 57” ləqəbli atla üçüncü yerə layiq görülüblər.

Günün sonuncu yarışında “S” kateqoriyası üzrə maneələrinin hündürlüyü 130-140 santimetr olan finalda birinci yerə və “Sərhədçi kuboku”na “Buta Golden” klubunun idmançısı Yahor Morotski “Astrello” ləqəbli atla sahib olub. “Sərhədçi” klubunun idmançısı Seyid Musayev “David”, “Omar” klubunun idmançısı Ələkbər Məmmədov isə “Francesko” ləqəbli atla digər pillələrdə yer alıblar.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

# Valideynlər uşaqların sağlam həyat tərzində xüsusi rol oynayır

***Yay fəslində insanlar daha çox istirahət barədə düşünürlər. Elə bu məqsədlə əksər ailələrdə tətillər, şəhərdən kənarda istirahətlər planlaşdırılır. Bu, uşaqlar üçün də xarakterikdir. Valideynlər övladlarının tətil mövsümündə asudə vaxtlarının səmərəli keçirilməsi üçün bir sıra işlər görməyə çalışırlar. Daha çox onların tətil vaxtlarında idmanla məşğul olmalarına çalışırlar. Düşünürlər ki, yay aylarında uşaqların səmərəli işlə məşğul olması üçün idman ən yaxşı vasitədir. Valideynlər bunu övladlarının sağlamlığı üçün etsələr də, bəzi hallarda təhlükəni nəzərdən qaçırırlar. Təhlükə nədən ibarətdir?***



## Hər bir orqanizm üçün xarakterik idman növləri və hərəkətlər var

Hər şeydən əvvəl valideyn bilməlidir ki, onun övladı həmin idman növü ilə məşğul olmağa hazırdırmı? Kor-koranə, “qonşudan qalma geri” prinsipi ilə bu addımı atmaq olmaz. Hər bir orqanizm və yaş həddi üçün xarakterik idman növləri və hərəkətlər var. Elə bu məqsədlə, isti yay günlərində bir sıra idman klublarında olub, valideynlərlə görüşdük. Maraqlandıq ki, onlar öz övladlarının sağlamlığı barədə nə düşünürlər? İlk görüşdüyümüz valideynlərdən biri Araz Məmmədov oldu. O, övladı Ayazı üzgüçülük məşqlərinə yazdırıb. Səbəbi soruşduqda, Araz Məmmədov bunları dedi: “Oğlum Ayazın 8 yaşı var. Doğuluşdan o, zəif təsir bağışlayırdı. Həkimlər bildirdilər ki, uşağın sümükləri çox kövrəkdir. Əgər üstünə düşməsəniz, gələcəkdə xoşagəlməz fəsadlar ola bilər. Məhz bunu nəzərə alaraq, məsləhət gördülər ki, o, üzgüçülüklə məşğul olsun. Yaşadığımız ünvanın yaxınlığında hovuz olmadığı üçün bir qədər kənara çıxmalı olduq. Onu özəl sağlamlıq mərkəzlərindən birində üzgüçülük məşqlərinə yazdırdım. Bir neçə ildir ki, övladımı müntəzəm olaraq məşqlərə gətirirəm. Ötən il həkim müayinəsinə aparmışdım. Həkimlər bildirdilər ki, Ayazın sağlamlığında müsbət irəliləyişlər var. Bu məşqlər 16-18 yaşlarına qədər davam etməlidir. Qərara aldım ki, əgər bu qədər vaxta qədər məşqlər davam edəcəksə, çalışıb onun peşəkar idmançı kimi formalaşmağına da dəstək verim. Buna görə də yaxın müddətdə onun təkmilləşməsi üçün yeni bir idman kompleksinə müraciət edəcəyəm. Ola bilsin ki, Ayaz gələcəkdə ölkə yarışlarında da iştirak etsin. Bir valideyn kimi buna nail olmaq mənim üçün xoş olardı”. Göründüyü kimi, idman vasitəsilə həm sağlam orqanizmə, həm də uğurlu nəticəyə malik olmaq mümkündür. Bunun üçün böyük vaxt və səbr tələb olunur. Onu da qeyd edək ki, üzgüçülük orqanizm üçün ən vacib idman növlərindən biridir. Su idman növləri ilə məşğul olmaqla düzgün qamətə, möhkəm əzələyə, sağlam ağ ciyərə sahib olmaq mümkündür. Bir sıra uşaq və yeniyetmələrdə erkən başlayan skalioz xəstəliyinin qarşısını üzməklə almaq olur.

## Zəriflik sağlamlıqla vəhdət təşkil edir

Bu mövzuda digər bir həmsöhbətimiz Elmar Mahmudovdur. O, güc strukturunda çalışır. Buna baxmayaraq, həftədə üç dəfə qızı Leylanı gimnastika məşqlərinə aparır. “Qızımın boyu hündürdür. Evdə olanda hiss edirdim ki, onda idmana böyük həvəs var. Uzun müddət götür-qoy etdik. Əvvəlcə, onu rəqs dərnəyinə yazdırdıq. Gördük ki, o, rəqs hərəkətlərini daha yaxşı qavrayır. Bir dəfə televizorda balaca gimnastlar arasında ölkə çempionatına baxırdıq. Gördüm ki, Leyla həmin uşaqlara diqqətlə baxır və onları təqlid etməyə çalışır. Bu, mənə xoş oldu. Söz verdim ki, səni gimnastika məşqlərinə yazdıracağam. Rəqs dərslərini saxlayıb, onu yaxınlıqdakı dərnəyə apardım. Orada olan müəllimlər əvvəlcə sağlamlıq haqqında arayış təqdim olunmasını bildirdilər. Öyrəndim ki, bütün bunlar uşağın sağlamlığı üçün nəzərdə tutulub. Artıq iki ilə yaxındır ki, Leyla gimnastika ilə peşəkar məşğul olur. Ölkə birinciliklərində mükafatalayiq nəticələr göstərir. Ən əsası gimnastika ona cazibədarlıq, plastika, xüsusilə sağlamlıq bəxş edib”, - deyə o bildirdi. Göründüyü kimi, gimnastika cinsindən asılı olmayaraq hər bir uşaq üçün məqsədəuyğundur. Bu idman növü ilə hələ kiçik yaşlardan məşğul olmaq tövsiyyə olunur. Məşqçi-müəllimlərin fikrincə, erkən yaşda gimnastika uşaqların sümüklərinə elastiklik bəxş edir. Bədən istənilən formada inkişaf edir, plastika yaranır. Bu, daha çox qızların ürəyincə olur. Zəriflik sağlamlıqla vəhdət təşkil edir.

## İstedadlı uşaqların potensialından lazımi səviyyədə istifadə etmək lazımdır

Tofiq Bəhramov adına Respublika Stadionunun köməkçi meydançalarında yüzlərlə uşaq və yeniyetmə futbolun sirlərinə yiyələnirlər. Yolumuzu oradan salıb, həmin məşq prosesini yerində seyr etdik. Valideynlər kiçik yaşlı uşaqların necə futbol oynadığını öz gözləri ilə görürlər. Həmin valideynlərdən birinə yaxınlaşdıq. Həmsöhbətimiz Nigar Rəsulova oldu. Xanım müsahibimiz oğlu Fəridin futbol məşqlərini izləyirdi. Mövzu ilə bağlı yazı hazırladığımızı bildirib, övladını niyə məhz futbola yazdırdığını soruşduq. Nigar xanım məsələnin çox sadə olduğunu bildirdi: “Bilirsiniz, çox az uşaq ola bilər ki, həyətə düşüb, futbol oynamasın. Fərid də həmin həmyaşıdları kimidir. Lakin biz qərara aldıq ki, övladımız futbolu sevirsə, qoy elə peşəkar səviyyədə məşğul olsun. Bu səbəbdən Tofiq Bəhramov adına Respublika Stadionuna gəlib, buradakı məşqlərlə maraqlandıq. Buradakı şəraitin qənaətbəxş olduğunu görüb, onu məşqlərə cəlb etdik. Fərid burada məşqlərini davam edir. Vaxtaşırı olaraq ya mən, ya da atası onu buraya gətiririk. Özümüz də həvəslə ona və yaşadlarına tamaşa edirik. Artıq 4 aya yaxındır ki, o, futbolun sirlərinə yiyələnir. Bunu hiss edirik. Hətta qonşu uşaqlar da onun yaxşı futbol oynadığını dilə gətirirlər. Bundan qürur duyuruq. Bir valideyn kimi məqsədimiz onu təkcə peşəkar futbolçu görmək deyil. İstəyirik ki, ən başlıcası o, sağlam böyüsün. Gələcəkdə pis vərdişlərdən uzaq olsun. Seçimi qoy özü etsin: ya peşəkar idmançı, ya da sağlam orqanizmə malik savadlı vətəndaş”. Bəli, hər bir valideyn bu gün çalışır ki, övladı fiziki və mənəvi cəhətdən sağlam böyüsün. Sağlam mühitdə böyüyən uşaq cəmiyyətimiz üçün gələcəkdə çox faydalı ola bilər. Futbol elə bir idman növüdür ki, onunla məşğul olan uşaq daha çevik, daha sağlam olur. Həkimlər belə qənaətə gəliblər ki, futbol oynayan uşağın orqanizmində maddələr mübadiləsi nizamla gedir, bədəndəki əzələlərin əksər hissəsində aktivlik yaranır. Enerji sərfiyyatı imkan verir ki, uşaqlar normal bədən quruluşuna sahib olsun, artıq çəki problemi aradan qaldırılsın. Bir də ki, futbol bu gün dünyada ən sevimli idman növü sayılır. Bütün dünyada olduğu kimi, Azərbaycanda da futbola olan maraq yetərincədir. Lakin təəssüf ki, “idmanın şahı” olan futbol hələ ki, ölkəmizdə çox az inkişaf edib. Bu uğura yiyələnmək üçün hər cür şərait var. Sadəcə istedadlı uşaqları vaxtında üzə çıxarıb, onların potensialından lazımi səviyyədə istifadə etmək lazımdır. Müşahidələr göstərir ki, Avropanın əksər futbol klubları skautlar vasitəsilə ən yaxşı uşaqları axtarır, onların parlamasında vasitəçi olurlar. Məlumdur ki, bu gün dünyada milyonların rəğbətini qazanan ulduz oyunçular məhz uşaq futbolunun yetirmələridir. Onların böyük uğurlara gedən yolu məhz məhəllə futbolundan başlayıb. Bu, əsas məsələdir.

## “Onlar öz yaşıdları ilə daha tez ünsiyyət qurur, laqeyd görünmürlər”

“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı” mövzusunda hazırladığımız yazı üçün yolumuzu bu dəfə ölkənin aparıcı şahmat məktəblərindən birinə saldıq. Burada olduğumuz vaxt xeyli valideynlə qarşılaşdıq. Onlar səbirsizliklə oturub, uşaqlarının şahmat dərslərini izləyirdilər. Valideynlərdən birinə yaxınlaşıb, söhbət etdik. Müsahibimiz Reyhan Ələkbərova oldu. Reyhan xanım bildirdi ki, məktəbə bir qız və bir oğlan nəvəsini gətirir. Hər ikisi uzun müddətdir ki, şahmatın sirlərinə yiyələnir. “Lalənin 10, Namiqin isə 9 yaşı var. Hər ikisi şahmata çox böyük həvəs göstərir. Lalə şahmata bir az tez başlayıb. Qardaşı Namiq isə sonradan həvəs göstərib. Onların hər ikisi həm məktəb dərslərində, həm də şahmat dərslərində fəaldırlar. Məktəbdəki müəllimləri də bunu dəfələrlə bildiriblər. Hiss edirik ki, onların dünya görüşü, davranışı və hadisələrə yanaşması fərqlidir. Yəni, onlar öz yaşıdları ilə daha tez ünsiyyət qurur, laqeyd görünmürlər. Dərslərdə, xüsusilə dəqiq elmlərdə aktivlik nümayiş etdirirlər. Bir məsələ var ki, çox az danışırlar. Düşüncələrində isə fərqli görünürlər. Hərdən elə sual verirlər ki, sanki qarşımızda yetkin bir gəncin olduğunu zənn edirik. Fikirləşirik ki, bu xüsusiyyət gələcəkdə onların xeyrinə olacaq. Onlar fəaliyyət göstərdiyi sahələrdə layiqli bir kadra çevriləcəklər. Onu da qeyd edim ki, şahmat dərslərindən sonra onları Dənizkənarı Bulvara aparıram. Orada açıq hava altında yaradılan nəhəng şahmat lövhəsində onların bir-biri ilə keçirdiyi oyuna tamaşa edirəm. Şahmat fiqurları ağır olduğundan Namiq bacısına onları tərpətməkdə köməklik edir. Halbuki o, bacısından bir yaş balacadır. Fikrimcə, nə dediyimi hamı başa düşür”, - deyə Reyhan xanım fikirləri bizimlə bölüşdü. Doğrudan da, Reyhan xanımın dediklərində məntiq var. Şahmat uşaqların mənəvi zənginliyi üçün ən yaxşı idman növüdür. Məntiqdən söz düşmüşkən, bəli, şahmat insanda məntiqi formalaşdırır, intellektin şaxələnməsinə böyük təsir edir. Müdriklərdən biri deyib ki, şahmat insan beyninin gimnastikasıdır. O, beynin fəaliyyətini artırır, düşüncələri saf-çürük edir. Bu intellektual idman növü ilə məşğul olan insanlarda aqressiya, kobudluq və qeyri-etik yanaşmaya demək olar ki, çox az hallarda rast gəlinir. Cəmiyyət məhz bu cür insanların sayəsində yüksək səviyyəyə çatır. İnsani keyfiyyətlər imkan verir ki, cəmiyyətdə aparıcı və savadlı şəxsiyyətlər yetişsin.

Nəhayət sonuncu baş çəkdiyimiz idman obyekti idman gimnastikası üzrə məktəblərdən biri oldu. Burada olduğumuz zaman gərgin məşq prosesi gedirdi. İdman gimnastikası üzrə fəaliyyət göstərən gənc mütəxəssislər kiçikyaşlı yeniyetmələrə məlumat və göstərişlər verirdilər. Valideynlər isə kənardan həmin mənzərəni seyr edirdilər. Onların arasında Tahir Bağırova yaxınlaşdıq. O, övladı Seymurun məşqlərinə tamaşa edirdi. Həyəcanlı görünürdü. Bu həyəcanın səbəbini soruşanda maraqlı bir hadisə danışdı. O, dedi: “Artıq bir ildən artıq ki, Seymuru idmana cəlb etmişik. O, çox dəcəl və enerjili bir uşaqdır. Hündür mərtəbəli binada yaşadığımız üçün evdə onu saxlamaq olmurdu. Bir az ərköyün böyütmüşük. Enerjisi çox olduğu üçün evdə bir yerdə oturmur. Gecələr isə çox gec və az yatırdı. Yaxın dostlarımdan biri məsləhət gördü ki, Seymuru idmana yazdıraq. Əvvəl razılaşmırdıq, dedik ki, daha da dəcəl olacaq. Amma gözlənilənlərin əksini gördük. O, enerjisini idmana yönəltdi. Dərslərində də fəallıq göstərir. Yay tətili olmasına baxmayaraq, bikar vaxtlarında kitablar oyuxur. Ən maraqlısı odur ki, yuxu rejimi də düzəlib. Vaxtlı-vaxtında yatır. Bir sözlə, idman onun formalaşmasında müsbət rol oynayır”. Göründüyü kimi, dəcəl uşaqların idmana cəlb olunması yaxşı haldır. Onlar enerjisini idmanla tənzimləyir. Qidalanma və yuxu normallaşır, kiçik yaşlardan özünəinam hissi





yaranır. Doğrudan da, idman insan oraqnizmi üçün vacib şərtlərdən sayılır. Passivlik və özünəqapılma kimi mənfi xüsusiyyətləri idmanın köməyi ilə aradan qaldırmaq mümkün olur.

## Hansı yaşda, hansı idman növü ilə məşğul olmaq məsləhətdir?

Hansı idman növlərinin, hansı yaşda uşaqlar üçün xarakterik olduğunu bir daha diqqətə çatdırmaq yerinə düşər. Buna hər birimiz ciddi riayət etməli, nəzarətdə saxlamalıyıq.

Müşahidələr göstərir ki, azyaşlı uşaqlar, xüsusən də oğlanlar əksər hallarda boks, karate, güləş, cüdo və s. idman növlərinə həvəsli olurlar. Bu həvəsi hiss edən valideynlər övladlarının istəyini yerinə yetirməyə çalışırlar. Lakin qeyd olunduğu kimi, valideynlər onların yaşından, fiziki sağlamlığından asılı olmayaraq övladlarını həmin idman növlərinə yazdırırlar.

Təbii ki, uşaq idman məktəbinə gedərkən həkim müayinəsindən keçmir. Elə idman müəllimləri də var ki, bunu tələb belə etmirlər. Məhz buna görədir ki, bəzən qan azlığı, ürək qüsuru yaşayan uşaqlar bu cür idman növü ilə məşğul olandan sonra müxtəlif fəsadlarla üzləşirlər.

Təbiidir ki, uşaqların ağırlığa meylli idman növləri ilə məşğul olması məqsədəuyğun deyil. Çünki onlar inkişaf mərhələsində olduqları üçün güclü məşğələlərə davam gətirə bilmirlər. Uşaqlarda sümüklər inkişaf prosesində olur. Həkimlərin fikrincə, həmin yaş həddində onlarda ürək tutumu fərqli, karbohidrat balansı yetkin insanlarla müqayisədə daha azdır. Mütəxəssislərin rəyinə əsasən, 2-3 yaş arası uşaqlar qaçmaq, tutmaq və tullanmaq kimi hərəkətləri icra edirlər. Bu səbəbdən bağçada qaçma, gəzişmə, rəqs etmə, suda nəzarət altında oynama və təcrübəli şəxslərin nəzarəti altında gimnastika hərəkətləri ola bilər. 4-6 yaş: rəqs, üzgüçülük, gimnastika, ip atlama və velosiped (üç təkərli) idman növləri məsləhət görülür. 7-10 yaş: gimnastika, üzmə, futbol, basketbol, voleybol, həndbol, velosiped, tennis və üzgüçülük kimi idman növləri üçün xarakterikdir. 10 yaş və sonrası: əvvəlki yaşlarda başladıqları idmanları daha mütəşəkkil olaraq etməyə davam edərkən atletika və yaxud güləşə başlaya bilər. Bir neçə il sonra isə güc tələb edən boks, taekvondo və karateyə də keçid uğurlu sayıla bilər.

Uşağın 14 yaşından əvvəl boks, güləş və karateyə başlaması məsləhət deyil. Çünki sümüyün inkişafı hələ tamamlanmayıb və bədənə ağırlıq salan bu idman növü bədən üçün zərərli ola bilər. İdman növlərinin başlama yaşı isə bu cürdür: atletika 10-12 yaş, basketbol 7-8 yaş, boks 13-14 yaş, velosiped 14-15 yaş, bədii gimnastika 5-6 yaş, idman gimnastikası 6-7 yaş, xizək 6-7 yaş, futbol 10-12 yaş, üzgüçülük 3-7 yaş, cüdo 8-10 yaş və s.

Hazırda yeniyetmə və gənclərin məşq zallarında trenajorlara axını hiss olunur. Bu isə böyük problemlərə gətirib çıxara bilər. Hətta elə valideynlər var ki, uşaqlarını trenajorlara gətirirlər. Bu arzuolunmaz haldır. Məlumdur ki, trenajorda hər şey ağırlığın üzərində qurulub. Ən yaxşısı, onları əlbəyaxa və özünümüdafiə döyüş növlərinə yönəltməkdir. Uşaq həm də gələcəyin ailə başçısıdır. Onlar indidən özünü müdafiə etməyi bacarmalıdır. Bunu valideynlər də dərk etməldirlər. İdman zədələrin olduğu bir sahədir. Yəni burada uşağın qolu, ayağı sınıb, əzilə bilər. Zədəsiz idman növü olmur. Əksinə, uşaq belə mərhələləri keçməlidir ki, dözümlü, iradəli olsun. Sağlamlıq üçün hansı idman növünün seçilməsinin fərqi yoxdur. Əsas odur ki, uşaq hərəkətdə olsun. Uşağın sağlamlığına birinci valideyn nəzər yetirməlidir. Uşaq var ki, 8-9 yaşı var, çəkisi 50-60 kilodur. Hər şey valideynlərdən irəli gəlir. Uşağın qidanlanmasına da ciddi riayət olunmalıdır. Əgər valideyn uşağın qidalanmasına nəzarət etmirsə, idmanla sağlamlıq əldə etmək mümkün olmayacaq. Bir sözlə, böyük uğurlara və sağlam həyat tərzinə gedən yol həm də valideynlərdən başlayır.

***Anar Əhmədov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Avqust ayının yekunu Olimpiya dünyası-nın təqdimatında

## Atletika

Almaniyanın paytaxtı Berlində atletika üzrə Avropa çempionatı keçirilib. Yarışda ölkəmizi üçtəkanla tullanma yarışlarında təmsil edən Aleksis Kopello gümüş medala layiq görülüb.

İdmançımız yarışların finalında 16,93 metr nəticə göstərib. Portuqaliyalı Olimpiya və dünya çempionu Nelson Evora 17,10 metr göstərici ilə Avropa çempionu adını qazanıb. Yunanıstanlı atlet Dimitrios Tsiamis 16,78 metr göstərici ilə bürünc medala yiyələnib.

Azərbaycanın digər idmançısı Nazim Babayev isə 16,76 metr nəticə ilə yunanıstanlı rəqibindən cəmi iki santimetr geri qalaraq dördüncü sırada qərarlaşıb.

## Gimnastika

Batutçularımız Batumidə keçirilən "Ajara Cup" beynəlxalq turnirində uğurla çıxış ediblər. 15-16 yaşlı gimnastların yarışında Selcan Maqsudova 85,100 xalla gümüş medalın sahibi olub.

Həmçinin 11-12 yaşlı oğlanların yarışında isə Hüseyn Abbasov qızıl (89,675 xal), Maqsud Maqsudov bürünc (82,965 xal) medallara layiq görülüblər.

* * *

Belarusun paytaxtı Minskdə bədii gimnastika üzrə "Challenge" seriyasına aid dünya kuboku yarışları keçirilib.

39 ölkədən 200-dən çox gimnastın iştirak etdiyi turnirdə Azərbaycan təmsilçiləri də mübarizə aparıblar. Aliyə Paşayeva, Siyana Vasileva, Zeynəb Hümmətova, Ayşən Bayramova və Diana Domandan ibarət qrup hərəkətləri komandamız çoxnövçülükdə səkkizinci pillədə qərarlaşıb. Komandamız, həmçinin hər iki kompozisiya ilə final mərhələsinə keçməyi də bacarıb.

Qızlarımız beş halqa ilə final çıxışlarına görə 19,800 xal alaraq altıncı, üç top - iki ip ilə kompozisiyaya görə isə beşinci yerdə qərarlaşıblar.

* * *

Böyük Britaniyanın Qlazqo şəhərində idman gimnastikası üzrə Avropa çempionatı keçirilib. Avropanın 37 ölkəsindən 151 böyük, 158 gənc kişi gimnastın iştirak etdiyi mötəbər turnirdə Azərbaycan gimnastları da iştirak ediblər.

Ölkəmiz böyüklər proqramında Murad Ağarzayev, Dari Morozov, İvan Tixonov, Nikita Simonov, gənclər proqramında isə Ağamurad Qəhrəmanov, Səməd Məmmədli, Cavidan Babayev, Ramin Dəmirov və Rüstəm Əhməd tərəfindən təmsil olunublar.

Gimnastlarımızdan ən yaxşı nəticəni gənclər arasında mübarizə aparan Cavidan Babayev göstərib. O, halqalarda çıxışda final mərhələsinə adlamağı bacarıb. Bununla da ölkəmiz ilk dəfə olaraq, qitə birinciliyinin gənclər arasında final mərhələsində təmsil edilib. İdmançımız əsas mərhələdəki çıxışı ilə turniri yeddinci yerdə başa vurub.

* * *

Batut üzrə Azərbaycan yığma komandasının üzvləri Yaponiyanın Mayebaşi şəhərində keçirilən dünya kuboku yarışında iştirak ediblər.

Qadın və kişi gimnastlarımız həm fərdi, həm də sinxron proqramda gücləri sınayıblar. İdmançılarımızdan ən yaxşı nəticəni sinxron cütlüklərin yarışında Ruslan Ağamirov və İlya Qrişunin göstəriblər. Gimnastlarımız final mərhələsində topladıqları 45,250 xalla altıncı yerdə qərarlaşıblar.

## Cüdo

Belarusun paytaxtı Minskdə cüdo üzrə açıq Avropa çempionatı keçirilib. 40 ölkədən 390 (272 kişi, 118 qadın) cüdoçunun qüvvəsini sınadığı yarışda Azərbaycan millisi 12 (4 kişi, 8 qadın) idmançı ilə təmsil olunub. Yarışın ilk günü qadın cüdoçumuz Ayşə Qurbanlı bürünc medala layiq görülüb.

Növbəti yarış günündə isə 100 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Elmar Qasımov bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## Güləş

İtaliyanın paytaxtı Romada güləş üzrə gənclər arasında Avropa çempionatı keçirilib. Çempionatın ilk günlərində mübarizə aparan yunan-Roma güləşçilərimiz 1 qızıl, qadın güləşçilərimiz isə 1 gümüş medala sahib olub. Yunan-Roma yığmamızda Ülvi Qənizadə (72 kq), qadın güləşçilərdən ibarət millimizdə isə Tatyana Vorontsova (53 kq) fəxri kürsüdə yer alıb.












Yarışın son günlərində mübarizə aparan sərbəst güləşçilərimiz isə turniri üç gümüş və dörd bürünc medalla başa vurublar.

İntiqam Vəlizadə (61 kq), Hacımurad Hacıyev (70 kq) və Asxab Həmzətov (92 kq) yalnız final görüşündə uduzaraq gümüş medalla kifayətləniblər. Bürünc medalları isə yığmamıza Əliabbas Rzazadə (57 kq), İsmayıl Abdullayev (74 kq), Orxan Abbasov (79 kq) və Rahid Həmidli (125 kq) qazandırıblar.

Bu nəticə ilə sərbəst güləşçilərimiz komanda hesabında Avropa ikincisi olub. Rusiya isə birinci, pillədə qərarlaşıb.

## Boks

Rusiya Federasiyası Çeçenistan Respublikasının paytaxtı Qroznıda kişi boksçular arasında beynəlxalq turnir keçirilib. Turnirdə 17 ölkədən 105 boksçu qüvvəsini sınayıb. Çeçenistan Respublikasının sabiq prezidenti Əhməd Kadırovun xatirəsinə həsr olunan sayca 10-cu yarışda Azərbaycan millisi 1 qızıl və 2 bürünc medal qazanıb.

Komandamızın heyətində Məhəmməd Abdullayev (91 kq-dan yuxarı) bütün rəqiblərinə qalib gələrək çempion tituluna yiyələnib. Digər boksçularımızdan Araz İmaməliyev (52 kq) və Cəbrayıl Yelikov (81 kq) üçüncü yeri tutublar.

Yığmamız komanda hesabında dördüncü yerdə qərarlaşıb. İlk pilləyə beş qızıl, altı gümüş və yeddi bürünc medal qazanan Rusiya sahib olub.

* * *

Serbiyanın Vrbas şəhərində yeniyetmə boksçular arasında beynəlxalq turnir keçirilib. 24 ölkənin iştirak etdiyi yarışda Azərbaycan millisi 8 boksçu ilə təmsil olunub. Komandamız beynəlxalq turnirdə 1 qızıl və 2 bürünc medal qazanıb.

Vaqif Kazımovun rəhbərlik etdiyi yığmamızın heyətində Murad Allahverdiyev (80 kq) bütün rəqiblərinə qalib gələrək çempion adını qazanıb. O, finalda hindistanlı Abhimanyu Louranı 5:0 (30:27, 30:27, 30:27, 29:28, 29:28) hesabı ilə məğlub edib.

Komandamızın digər boksçularından Əli Zamanovla (48 kq) Əzrak Bəbirov (54 kq) 3-cü yerlə kifayətləniblər. Onlar yarımfinalda müvafiq olaraq, Bişvamitra Çinqtham və Laxmani Thanqjamçaya (hər ikisi Hindistan) uduzublar.

## Voleybol

Qadınlardan ibarət voleybol yığmamız Antalyada keçirilən "Gloria Cup" beynəlxalq turnirində növbəti oyununu keçirib. Komandamız Rusiya millisi ilə qarşılaşıb. Görüş 3:0 (25:21, 25:20, 25:18) hesabı ilə rəqib komandanın qələbəsi ilə yekunlaşıb.

Xatırladaq ki, birinci oyunda yığmamız Türkiyə komandasına 3:0 hesabı ilə uduzub. İkinci matçda isə İtaliya millisinə 3:0 hesabı ilə qalib gəlib.

* * *

Voleybol üzrə kişilərdən ibarət Azərbaycan millisi Avropa çempionatının seçmə mərhələsində növbəti oyununu keçirib.

G qrupunda mübarizə aparan yığmamız Bakıda Yunanıstan komandası ilə qarşılaşıb. Dərnəgül Voleybol Mərkəzində keçirilən görüş millimizin 2:3 (25:20, 25:22, 22:25, 18:25, 5:15) hesabılı məğlubiyyəti ilə başa çatıb.

## Şahmat

Beynəlxalq qrossmeyster Vüqar Həşimovun doğum gününə həsr olunmuş "Young Talented Chess Players" şahmat festivalı keçirilib.

Vüqar Həşimov adına Şahmat Akademiyasında təşkil olunmuş festival çərçivəsində iki turnir keçirilib.

Dairəvi sistem üzrə keçirilən A turnirində qarşılaşan 10 iştirakçıdan 5-i FIDE-nin ustasıdı. "B" qrupunda isə Azərbaycan, Rusiya, Fransa və Birləşmiş Ərəb Əmirliklərini təmsil edən 61 iştirakçıdan dördünün FIDE rütbələri var. Turnir İsveçrə sistemi üzrə doqquz turdan ibarət olub.

"A" turnirində sonuncu - doqquzuncu turdan sonra Zərdab nümayəndəsi Fərid Zeynalov 7 xal toplayaraq qalib gəlib. İkinci yeri Murad İbrahimli (6,5 xal), üçüncü yeri isə Samir Davudov tutub (5,5 xal). "B" turnirində 9 mümkün xaldan 8 xal toplamış Aqil İsrailov (Bakı) birinci yeri tutub. Elcan Əbdülkərimli (7,5 xal) gümüş, Rəvan Sadiqzadə isə (7 xal) bürünc medala yiyələnib.

* * *

Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov İsveçrənin Bil şəhərində keçirilən ənənəvi şahmat festivalının qalibi olub. Festivalın sonuncu oyun günü ərəfəsində Şəhriyar əsas rəqiblərini 2 xal qabaqlayıb. Festivalın sonuncu - onuncu turunda fransız Maksim Vaşye-Laqrav çexiyalı David Navaraya, norveçli Maqnus Karlsen isveçrəli Niko Georgiadisə qalib gəlib, Pyotr Svidler ilə Şəhriyar Məmmədyarovun oyunu heç-heçə başa çatıb.

Beləliklə, Şəhriyar Məmmədyarov 7,5 xal toplayaraq turnirin qalibi adını qazanıb. Maqnus Karlsen - 6 xal, Maksim Vaşye-Laqrav və Pyotr Svidler - hərəyə 5,5 xal, David Navara - 4 xal, Niko Georgiadis - 1,5 xal toplayıb.

* * *

Azərbaycan qrossmeysteri Nicat Abbasov Monqolustanın paytaxtı Ulan-Batorda keçirilən beynəlxalq turnirdə 9 mümkün xaldan 6-sını toplayaraq gümüş medala layiq görülüb.

Turnirin qalibi 7 xal toplamış amerikalı şahmatçı Rey Robson olub. Azərbaycanın digər təmsilçisi Vasif Durarbəyli və rusiyalı şahmatçı Anton Şomoyev liderdən iki xal geri qalıb.

* * *

ABŞ-ın Sent-Luis şəhərində şahmat üzrə "Grand Chess Tour 2018" seriyasının üçüncü mərhələsi keçirilib. "Saint Louis Rapid & Blitz" turniri Hikaru Nakamuranın qələbəsi ilə başa çatıb. Blits üzrə yarışların ikinci dövrəsində amerikalı şahmatçı 9 mümkün xaldan 5,5 xal toplayıb və bununla da topladığı xalları 22,5-ə çatdırıb. Nakamura onu izləyən Maksim Vaşye-Laqravı 1 xal üstələyib.

Üçüncü yeri 21 xalla (4) şahmatçımız Şəhriyar Məmmədyarov, dördüncü yeri 20 xalla (4,5) İtaliya təmsilçisi Fabiano Karuana tutub.

* * *

Azərbaycan şahmatçısı Günay Məmmədzadə Əbu-Dabidə 25-ci beynəlxalq şahmat festivalının əsas turnirində birinci yeri tutub.

Beynəlxalq yarışda 32 ölkədən 158 şahmatçı, o cümlədən 50 qrossmeyster iştirak edib. Beynəlxalq dərəcəli usta Günay Məmmədzadə (Azərbaycan) və Gülruxbegim Tohirconova (Özbəkistan) mümkün 9 xaldan hərəyə 5,5 xal toplamaqla ən yaxşı nəticəni göstəriblər. İkinci əlavə göstəriciyə (rəqiblərin orta reytinqi) əsasən, Azərbaycan təmsilçisi qalib olub, özbəkistanlı şahmatçı isə ikinci yeri tutub.

Kişilər arasında Daniil Dubov (Rusiya), Anton Korobov (Ukrayna) və Saleh Salem (BƏƏ) 9 mümkün xaldan hərəyə 7,5 xal toplayaraq ən yaxşı nəticəni göstəriblər. Azərbaycan şahmatçısı, FIDE ustası Rəvan Əliyev 4 xal toplayıb.

"B" qrupunda FIDE reytinqi 2200 əmsaldan yüksək olmayan 231 şahmatçı iştirak edib. Azərbaycan təmsilçisi Fərid Mustafayev 7 xal toplayıb və liderlərdən - Camal Ovezdurdiyev (Türkmənistan) və Kazıbek Umbetovdan (Qazaxıstan) 1 xal geri qalıb.

* * *

Azərbaycan şahmatçısı Azər Mirzəyev İtaliyanın Bratto şəhərində keçirilən 38-ci "Conca della Presolana" festivalında 9 mümkün xaldan 6,5 xal toplayaraq, "Masters" turnirinin gümüş medalına layiq görülüb.

Latviyadan olan beynəlxalq dərəcəli usta Vladimir Sveşnikov və ukraynalı qrossmeyster Eldar Həsənov da eyni xala sahibdirlər. Əlavə göstəricilər nəzərə alınaraq, V.Sveşnikov qalib elan olunub. Belarus Nikita Mayorov, polşalı Zbiqnev Pakleza, rusiyalı Yevgeni Sveşnikov və hollandiyalı Yan Verle yarım xal geridə qalıblar.

İsveçrə sistemi üzrə 9 turda keçirilən "Conca della Presolana 2018" turnirində 48 şahmatçı, o cümlədən 11 qrossmeyster iştirak edib.

## Stolüstü tennis

Bakıda Azərbaycan və İran yığma komandalarının birgə təlim-məşq toplanışı çərçivəsində yeniyetmələr arasında dostluq görüşləri keçirilib.

Oğlanlardan ibarət komanda yarışlarında I yeri İran, II-III yerləri isə Azərbaycan











komandaları tutub. Qızların görüşlərində isə I-II yerə Azərbaycan komandaları, III yerə isə İran yığması çıxıb.

Qızların şəxsi yarışlarında həmyerlilərimiz Fatimə Cəfərova 1-ci, Mərziyyə Nurmətova 2-ci, Arzu Aslanova və Mehriban Dadaşova isə 3-cü yerə layiq görülüblər.

Oğlanların şəxsi yarışlarında iranlı tennisçi Yasin Esfahani 1-ci, həmyerlimiz Adil Əhmədzadə 2-ci, Erfan Yazdanbaxş və Habibi Muhammedhasan isə 3-cü yerləri tutublar.

Qaliblər diplom, medal və hədiyyələrlə təltif olunublar.

## Su polosu

Batumidə su polosu üzrə "BREUS Cup 2018" turniri keçirilib. Yarışda Gürcüstan və Rusiya təmsilçiləri ilə yanaşı, Bakı Su İdmanı Sarayının komandası da mübarizə aparıb.

Təmsilçilərimiz ilk görüşdə məğlub olsalar da, digər oyunlarda qalib gələrək üçüncü yeri tutublar.

## Mas-reslinq

Bakıda kişi və qadınlar arasında keçirilən mas-reslinq üzrə Avropa çempionatı keçirilib. Çempionatda Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Macarıstan, Slovakiya, Finlandiya, Rusiya və Fransadan 100-ə yaxın idmançı iştirak edib. Komandamız bu idman növü üzrə qitə miqyaslı turnirdə 36 atletlə təmsil olunub.

Yığmamız çempionatda ümumilikdə 14 medala (3 gümüş, 11 bürünc) sahib çıxıb. Komanda hesabında Rusiya birinci (128 xal), Macarıstan ikinci (89 xal), Azərbaycan üçüncü (79 xal) yerdə qərarlaşıb.

## Muay-tay

Azərbaycanlı K-1 döyüşçüsü, kikboksinq üzrə dəfələrlə dünya və Avropa çempionu olmuş Zabit Səmədov muay-tay üzrə fransalı çempion Bris Quidon ilə qarşılaşıb. Döyüş Çeçenistanın ilk prezidenti Əhməd Hacı Kadırovun doğum gününə həsr olunub. Çeçenistanın paytaxtı Qroznıda təşkil olunan döyüş Zabitin qələbəsi ilə yekunlaşıb.

## Yelkənli idman

Ölkəmizi beynəlxalq yarışlarda uğurla təmsil edən Azərbaycan Yelkənli İdman Federasiyasının təmsilçiləri Qazaxıstanın Aktau şəhərində keçirilən "Beynəlxalq Xəzər Kuboku" yarışında qələbə qazanıblar.

Turnirdə Azərbaycan idmançıları ilə yanaşı, Qazaxıstan və Özbəkistan təmsilçiləri də mübarizə aparıblar.

Beynəlxalq turnirdə kişi idmançılarımız birinci və üçüncü yerdə, qızlarımız isə fəxri kürsünün hər üç pilləsində qərarlaşaraq medallara sahib olublar.

## Badminton

Badminton üzrə Azərbaycan millisinin üzvləri Edi Reski Dviçayo və Ezmi Qovimuramadhoni Bolqarıstanın paytaxtı Sofiyada keçirilən "Eurasia Bulgarian Open Championship" turnirində çıxış ediblər.

İdmançılarımızdan mübarizəyə təsnifat mərhələsindən başlayan Ezmi Qovimuramadhoni keçirdiyi iki görüşdə qalib gəlib. Təmsilçimiz müvafiq olaraq Yunanıstan və Rusiya badmintonçularını məğlub edib. Lakin E.Qovimuramadhoni əsas mərhələyə yüksəlmək uğrunda görüşdə danimarkalı Mads Zogersenə 1:2 (21:12, 19:21, 14:21) hesabı ilə uduzub.

Mübarizəyə əsas mərhələdən başlayan Edi Reski Dviçayo isə kişilərin şəxsi yarışında ilk görüşünü turnirin bir nömrəli reytinq favoriti irlandiyalı Nhat Nquyenə qarşı keçirib. Gərgin keçən görüşdə badmintonçumuz rəqibinə 1:2 (21:23, 21:17, 17:21) hesabı ilə uduzub.

İdmançılarımız turnirin qoşa yarışında danimarkalı Mads Zogersen - Filip İllum Klindt cütlüyü ilə qarşılaşıblar. Badmintonçular idmançılarımızdan 2:0 (18:21, 15:21) hesabı ilə üstün olublar.



# Köhnə rəqiblər yenidən eyni qrupda üz-üzə gələcəklər

## B qrupunda üç rəqib üçün iki vəsiqə

Avqustun 30-da UEFA Çempionlar Liqasının 2018/2019-cu illər mövsümü üçün qrup mərhələsinin püşkü atılıb. Reqlamentə əsasən, 32 komanda 8 qrup üzrə öz rəqiblərini tapıb. Daha çox diqqət B qrupuna yönəlib. Bu qrupda "Barselona", "Tottenhem" və "İnter" klubları bir yerə toplaşıblar. Bu üç komanda arasında 1/8 final mərhələsinə hansı klubun vəsiqə əldə edəcəyi böyük maraq doğurur. "Olimpiya dünyası" qəzeti oxucularına qrupların qısa təhlilini təqdim edir.



### A qrupu

"Atletiko" (Madrid, İspaniya)
"Borussiya" (Dortmund, Almaniya)
"Monako" (Fransa)
"Brügge" (Belçika")

Bu qrupda daha çox İspaniya və Almaniya təmsilçilərinin ilk iki yeri tutacağı gözlənilir. Çempionlar Liqasında böyüktəcrübəyə malik olan Madrid təmsilçiləri qrupu lider kimi tamamlaya bilər. Ötən mövsümdə Avropa liqasında qalib olub, Super Kuboka yiyələnən ispanlar çətin ki, bu imkanı əldən versin. Dortmund təmsilçisi də kifayət qədər güclü kollektivə malikdir. "Monako" isə əvvəlki qüdrətini demək olar ki, itirib. O ki qaldı "Brügge"yə, 15 qat Belçika çempionu ən yaxşı halda üçüncü yeri tutub, mübarizəni Avropa liqasında davam etdirə bilər.



### B qrupu

"Barselona" (İspaniya)
"Tottenhem" (İngiltərə)
PSV (Hollandiya)
"İnter" (İtaliya)

"B" qrupu bu mövsümdə Çempionlar Liqasında ən iddialı olan klubları bir araya toplayıb. Avropanın bir nömrəli klub turnirinin aşkar favoritlərindən sayılan "Barselona" üçün qrupda heç də asan rəqiblər yer almayıb. Son İspaniya çempionu üçün əsas rəqib şübhəsiz ki, "Tottenhem" sayılır. Son illərdə İngiltərə Premyer liqasında gözəl oyun nümayiş etdirən britaniyalıların ilk iki yerdən biri uğrunda mübarizə aparacağı gözlənilir. Qrup mərhələsinə təsnifatdan başlayan Hollandiya klubu isə çətinliklə üzləşəcək. Çünki yeni rəqibləri "Qarabağ"a qalib gələn Bateyə bənzəmir. İtaliya futbolunun əfsanələrindən sayılan "İnter" isə hər üç klub üçün "baş ağrısı"na çevrilə bilər . Milan təmsilçisi A seriyasında ən güclü rəqiblərdən biridir. Üstəlik "İnter" bu heyətindəki ən yaxşı futbolçuların sayəsində növbəti mərhələ səddi aşmaq əzmindədir.

### C qrupu

PSJ (Fransa)
"Napoli" (İtaliya)
"Liverpul" (İngiltərə)
"Srvena Zvezda" (Serbiya)

C qrupunda əsas mübarizə üç klub arasında keçəcək. Finallara gedən yolda bəxti gətirməyən PSJ bu tilsimi qırmağa çalışacaq. "Napoli" isə Çempionlar Liqasında ən çətin rəqiblərdən sayılır. İtaliya çempionatında qeyriadi çıxışı ilə yadda qalan neapollular qrupda qalmaq fikri ilə barışmayacaq. "Liverpul" isə ötənilki uğuru təkrarlayıb, çempionluğu təmin etmək istəyən heyətlə yarışacaq. Çempionlar Liqasında yalnız finalı uduzan "limanlılar" növbəti mərhələ barəsində düşünəcəklər. Qrupda "kabus"larla yarışacaq serbiyalıların şansı çox azdır. Bir vaxtlar ÇL-də iddialı olan "Srvena Zvezda"nın bu dəfə hər qazandıtı 1 xal onlar üçün böyük nəticə olacaq.

### D qrupu

"Lokomotiv" (Moskva, Rusiya)
"Portu" (Portuqaliya)
"Şalke" (Almaniya)
"Qalatasaray" (Türkiyə)

Bu dəfə "Qalatasaray"ın bəxti çox gətirdi, desək yanılmarıq. "Aslanlar" D qrupunda iddialı çıxış etmək əzmindədirlər. Onlar "Lokomotiv" və "Portu"dan ən azı 3 xal aldığı təqdirdə Çempionlar Liqasında mübarizəni davam etdirə biləcəklər. "Şalke" ilə görüşdə isə İstanbul təmsilçisini ən azı 1 xal qazanacağı qaçılmazdır. Çempionlar Liqasında ən asan qrupda yer alan "Qalatasaray"ın hər üç rəqibi əvvəlki gücdə deyil. Qrupda ən maraqlı qarşılaşma isə Portuqaliya və Almaniya təmsilçisi arasında olacaq. Rusların isə şansı elə çox deyil. "Dəmiryolçular" yalnız möcüzə sayəsində növbəti mərhələyə adlaya bilərlər.

### E qrupu

"Bavariya" (Almaniya)
"Benfika" (Portuqaliya)
"Ayaks" (Hollandiya)
AEK (Yunanıstan)

E qrupunun aşkar favoriti "Bavariya" sayılır. Finalların komandası olan son Almaniya təmsilçisi qrupda bütün rəqiblərindən xal alacaq. Növbəti mərhələyə ikinci vəsiqə uğrunda "Benfika" və "Ayaks" yarışacaq. Avroliqaya yollanacaq komanda da bu cütün zəif nəticə göstərəni olacaq. AEK-i də asan rəqib kimi görmək olmaz. Təsnifat mərhələsindən qrupa qədər uğurla irəliləyən yunanlardan sürpriz də gözləmək olar. Onlar müdafiə futbolu ilə dəfələrlə özlərini təsdiq ediblər.

### F qrupu

"Mançester Siti" (İngiltərə)
"Şaxtyor" (Donetsk, Ukrayna)
"Lion" (Fransa)
"Hoffenhaym" (Almaniya)

Bu qrupda köhnə rəqiblər yenidən üz-üzə gələcəklər. Belə ki, "Mançester Siti" və "Şaxtyor" yenidən ardıcıl ikinci dəfə eyni qrupda yer alıblar. Ötən mövsüm evdə qələbə qazanan (2:0), səfərdə isə məğlubiyyətlə (1:2) barışan "şəhərlilər" qrupu birinci pillədə başa vurub, 1/8 mərhələyə vəsiqə əldə etmişdilər. Fransa klubu da iddialı rəqiblərdən sayılır. ÇL-də debütantlardan biri olan "Hoffenhaym" Hər üç rəqibindən xal almaq əzmindədir.

### G qrupu

"Real" (İspaniya)
"Roma" (İtaliya)
SSKA (Rusiya)
"Viktoriya" (Çexiya)

Ardıcıl üç dəfə ÇL-nın qalibi olan Madrid "Real"ı üçün yeni estafet uğurla başlaya bilər. "Roma"nı nəzərə almasaq, turnirin son qalibi SSKA və "Viktoriya"yadan 6 xal ala bilər. "Kapitoli canavarları"nın İspanlara qalib gələcəyi isə sual altındadır. "Kral klubu" qrupda lider kimi, "Roma" isə ikinci yerlə növbəti mərhələyə vəsiqə qazana bilər. Yaxud, əksinə...Avropa liqası uğrunda mübarizədə isə daha çox "hərbçilərin" şansı var.

### H qrupu

"Yuventus" (İtaliya)
"Mançester Yunayted" (İngiltərə)
"Valensiya" (İspaniya)
"Yanq Boyz" (İsveçrə)

Nəhayət H qrupundakı klublara nəzər salaq. Bu qrupda "Yuventus" aşkar lider olaraq qalır. Əsas mübarizə isə "Valensiya" və "Mançester Yunayted" arasında olacaq. "Yarasalar" bu qrupda ən azı ikinci yeri tuta bilər. Çünki "qırmızı şeytanlar" bu il çox zəif təsir bağışlayır. Heyətində ulduz futbolçular olmasına baxmayaraq, İngiltərə təmsilçisi hələ də özünə gələ bilmir. Debütant "Yanq Boyz" isə qrupda yalnız xal hədiyyə etməklə yadda qala bilər.

Qeyd edək ki, qruplarda ilk qarşılaşmalar sentyabrın 18-19-da keçiriləcək.

## Azərbaycan - Kosovo oyununun biletləri satışa çıxarılıb

Futbol üzrə Azərbaycan millisinin UEFA Millətlər Liqasındakı ilk oyununun biletləri satışa çıxarılıb.

Azarkeşlər sentyabrın 7-də Bakı Olimpiya Stadionunda Kosovo yığmasına qarşı keçiriləcək matçın biletlərini bu gündən etibarən əldə edə bilərlər.

Üç kateqoriya üzrə təklif olunan biletlərin qiyməti 2-5 manat, VIP yerlər üçün isə 10 manatdır.

Bu oyuna bilet alan hər bir azarkeş Azərbaycan - Malta (14 oktyabr) və Azərbaycan - Farer adaları (17 noyabr) oyunlarının biletinə 50 faiz endirim əldə edə bilər. Endirim yalnız eyni dəyərli biletə ilk biletin alışı vaxtı tətbiq edilir (endirimlər "Sky Box" biletlərinə şamil olunmur).

Azərbaycan - Kosovo oyunu Bakı vaxtı ilə saat 20:00-da başlayacaq.

## Millimiz Avropa super finalında iştirak edəcək

Çimərlik futbolu üzrə Azərbaycan millisi səkkiz komandanın iştirakı ilə keçiriləcək Avropa super finalına vəsiqə qazanıb.

Bu mərhələnin oyunları sentyabrın 6-dan 9-dək İtaliyanın Sardiniya adasındakı Alqero şəhərində keçiriləcək.

Azərbaycan millisi İspaniya, Portuqaliya və İsveçrə yığmaları ilə birlikdə "A" qrupunda yarışacaq. "B" qrupunda isə Rusiya, Belarus, Ukrayna, İtaliya milliləri yer alıblar.

## "Mançester Yunayted" ölkəmizi tərk etdi

Azərbaycanda uşaq futbolunun inkişafı məqsədilə 2014-cü ildə təsis olunan "Mançester Yunayted Futbol Məktəbi" fəaliyyətini dayandırıb. Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının, "Bakcell" şirkətinin və "Mançester Yunayted" klubunun birgə əməkdaşlığı çərçivəsində Bakıda açılan məktəbin fəaliyyət müddəti tərəflər arasında bağlanmış müqaviləyə əsasən başa çatıb.

Layihə fəaliyyət müddəti ərzində "Bakcell" şirkəti tərəfindən dəstəklənib.

## Aleksander Çeferinin prezident seçkiləri üçün namizədliyi irəli sürülüb

Sloveniya Futbol Federasiyası (NZS) və yeddi futbol assosiasiyası Avropa Futbol Federasiyaları Birliyinin (UEFA) hazırkı prezidenti Aleksander Çeferinin təşkilata yenidən seçilməsinə dair namizədliyini təsdiqləyib.

Sloveniya, İsveç, Norveç, Finlandiya, Danimarka, İtaliya, İslandiya və Farer adaları futbol federasiyaları UEFA-ya A.Çeferini yeni seçkilərdə dəstəkləyən rəsmi məktub göndəriblər.

Qeyd edək ki, UEFA prezidenti seçkiləri 2019-cu il fevralın 7-də təşkilatın Roma qurultayında keçiriləcək. A.Çeferin 2016-cı ilin sentyabrında UEFA-nın prezidenti seçilib.

## Göyçay rayonunda futbol festivalı

"Açıq Əyləncəli Futbol Məktəbləri" layihəsi çərçivəsində AFFA-nın və Göyçay Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə bu rayonda futbol festivalı keçirilib. Tədbirdə rayon polis idarəsinin, gənclər və idman idarəsinin rəhbərləri və layihənin əlaqələndiricisi Kərim Ağayev iştirak ediblər.

Tədbirdə Milli Məclisin deputatı, AFFA-nın birinci vitse-prezidenti, Uşaq-Gənclər Futbol Federasiyasının prezidenti və layihənin rəhbəri Rauf Əliyev, Göyçay rayonundan seçilmiş deputat Sabir Hacıyev və rayon icra hakimiyyətinin başçısının müavini Zivər Zeynalova çıxış edərək layihənin həyata keçirilməsində məqsədin uşaqların və yeniyetmələrin asudə vaxtlarının səmərəli təşkili olduğunu vurğulayıblar. Eyni zamanda, yeniyetmə və gənclərdə futbola və idmanın digər növlərə maraq yaratmaqdan, sağlam həyat tərzini təbliğ etməkdən ibarət olduğunu bildiriblər.

Tədbirdə uşaqlara müxtəlif idman ləvazimatları paylanılıb.

Sonda uşaqlar əyləncəli futbol oyunu nümayiş etdiriblər.

## Məhəllələrarası mini futbol turnirinə yekun vurulub

Səbail rayonu üzrə məhəllələrarası mini futbol turnirinin final oyunları keçirilib.

Baş İdarə və Səbail rayonu Gənclər və İdman İdarəsi tərəfindən birgə təşkil olunmuş 2007-2008-cı illər təvəllüdlü uşaqlar arasında mini futbol turnirinin oyunları 20-ci sahə ərazisində yerləşən futbol meydançasında keçirilib.

Yarışda I yeri "Səbail", II yeri "Bayıl", III yeri "Sahil" komandaları tutub.

Qalib komandaların üzvləri Baş İdarə tərəfindən müvafiq dərəcəli diplom və medallarla təltif olunublar.

## Devid Bekhem UEFA prezidenti mükafatına layiq görülüb

Futbol üzrə İngiltərə millisinin və "Mançester Yunayted" klubunun sabiq kapitanı Devid Bekhem UEFA prezidenti mükafatına layiq görülüb. UEFA prezidenti Aleksander Çeferin bu barədə deyib: "Builki prezident mükafatının qalibi olaraq Devid Bekhemi seçirəm. Çünki o, beynəlxalq futbol səfiri kimi bu oyunun və onun dəyərlərinin planetin bütün bölgələrində geniş təbliğində mühüm rol oynayıb. O, humanitar sahədə danılmaz əməyinə, bütün dünyada uşaqlara göstərdiyi köməyə görə təltif olunmağa layiqdir. Devid öz dövrünün əsl futbol ikonasıdır".

UEFA prezidenti mükafatı ilə təltif edilməsinin onun üçün böyük şərəf olduğunu deyən 43 yaşlı Bekhem bildirib: "Karyeram ərzində həmişə komanda ruhunun inkişafına və təbliğinə çalışmışam. Bu mükafata layiq görülən insanların sırasına daxil olmaqdan qürur duyuram".

Devid Bekhem futbol karyerasını 2013-cü ildə başa vurub. İngiltərə millisinin heyətində 115 oyunda 17 dəfə fərqlənən futbolçu "Mançester Yunayted", "Real Madrid", "Los-Anceles Qalaksi", "Milan" və PSJ klublarının şərəfini qoruyub.

Qeyd edək ki, UEFA prezidentinin mükafatı 1998-ci ildən etibarən təqdim olunur. Mükafatın ilk sahibi Avropa Komissiyasının sədri Jak Delor olub. J.Delor 1999-cu, 2015-ci və 2016-cı illərdə də bu təltifə layiq görülüb. UEFA Prezidenti keçən il bu mükafatı "Roma" klubunun sabiq futbolçusu Françesko Tottiyə təqdim etmişdi.

DÜNYA



İDMANI

# Biletləri 3 dəqiqəyə satılan döyüş





Qarışıq döyüş növlərinin (MMA) UFC kateqoriyası üzrə ən güclü idmançıları hesab edilən rusiyalı Həbib Nurmaqomedov ilə irlandiyalı Konor Makqreqor arasında oktyabrın 6-da ABŞ-ın Las-Veqas şəhərində keçiriləcək döyüşün biletləri üç dəqiqə ərzində satılıb.

Biletlərin qiyməti 205-2505 dollar arasında dəyişib. Bu qarşılaşma ABŞ-ın Milli Hokkey Liqasında çıxış edən "Vegas Golden Knights" klubunun arenasında təşkil olunacaq.

Peşəkar arenada indiyədək məğlub olmayan rusiyalı döyüşçü bu görüşdə dünya çempionu kəmərini müdafiə edəcək.

UFC versiyası üzrə dünyanın ən güclü idmançılarından hesab edilən irlandiyalı Konor Makqreqor isə 24 döyüşün 21-də qalib gəlib. O, ilk dəfə 2015-ci ildə UFC çempionu adını qazanıb.



## Kobe Brayant köynəyini kimə verdi?

NBA-nın "Dallas" klubunun yeni oyunçusu Luka Dončiç əfsanəvi basketbolçu Kobe Brayantla birgə məşq edib.

19 yaşlı sloveniyalı məşhur idmançı ilə şəkillərini şəxsi hesabında paylaşıb.

Kobe Brayant yeni oyunçuya imzalı köynəyini hədiyyə edib.

## Menecer oğurluqda ittiham olunur

NBA-nın "Sakramento" klubunun top-meneceri Ceffri Devid klubun büdcəsindən 13,4 milyon dollar vəsait oğurlamaqda ittiham edilir. Bu barədə "The Sacramento Bee" nəşri yazıb.

44 yaşlı menecerin işini Federal Təhlükəsizlik Bürosu və federal prokurorluq araşdırır. Ceffri Devid bundan əvvəl "Kinqz" klubunda fəaliyyət göstərib və iyunun 1-də oranı tərk edib. İyul ayından isə o, "Mayami"də top-menecer vəzifəsində çalışır. Deyilənlərə görə, basketbol meneceri oğurladığı pullarla özünə Kaliforniyada malikanə alıb.

## Çempion imicini dəyişdi

"San-Antonio"nun tanınmış oyunçusu Tim Dankan imicini dəyişib.

5 qat NBA çempionu son şəkillərində yeni imici ilə azarkeşlərinin diqqətini cəlb edib. "Spers" klubunun gənc basketbolçusu Loni Yoker zarafatla deyib ki, 42 yaşlı Dunkanın saçlarını onunku kimi kəsdirməkdən xoşu gəlir.

## "Mişlen" şirkəti imtina etdi

"Mişlen" şirkəti 2019-cu Formula-1-i təkərlə təmin etməkdən imtina edib.

Bu barədə şirkət özü açıqlama verib: "Biz Beynəlxalq Avtomobil idmanı Federasiyasının (FİA) təkərlərlə bağlı texniki göstəriciləri ilə diqqətlə tanış olduq. Şirkətimiz Formula-E-yə 18 cüt təkər satıb. Lakin FİA tərəfindən şou xatirinə təkərlərin effektliliyini aşağı salmaq tələbləri bizim şirkətin prinsiplərinə uyğun gəlmir və biz məhz bu səbəbdən əməkdaşlığı dayandırmağa qərar verdik".



## *Ronaldonun transferindən sonra "Yuventus"un səhmləri artıb*

Portuqaliyalı hücumçu Kriştiano Ronaldonun transferindən sonra Turinin "Yuventus" klubunun səhmləri 55,15 faiz artıb.

Hazırda "Yuventus" klubunun səhmləri 1 milyard avro həcmində dəyərləndirilir. Klubun səhmlərinin birjada bu qədər yüksəlməsinin səbəbi isə futbolçunun "Yuventus" formasının satışı ilə izah edilir.

Xatırladaq ki, Ronaldo bu yay İspaniyanın "Real Madrid" klubundan 112 milyon avroya "Yuventus" klubuna transfer olunub. Otuz üç yaşlı hücumçunun illik maaşı isə 30 milyon avro təşkil edir.

# Mixael Şumaxerdən yeni xəbər var

Formula-1 yarışlarının almaniyalı əfsanəvi pilotu Mixael Şumaxer 2013-cü ildə başından aldığı ağır zədədən sonra müalicəsini davam etdirir. Britaniyada çıxan "The Mirror" qəzetində Şumaxerin səhhəti ilə bağlı xəbərlər dərc edilib. Yeddiqat dünya çempionunun qohumlarından birinin sözlərinə görə, Şumaxer emosiyalarını nümayiş etdirməklə bütün ailəni sevindirir.

"Kral yürüşləri"nin 49 yaşlı sabiq pilotu ailəsi ilə hazırda İsveçrənin Qland şəhərində, Cenevrə gölünə yaxın ərazidəki villada yaşayır.

Qəzet anonim mənbənin bu sözlərini sitat gətirir: "Biz onu əlil arabasına əyləşdirib dağlara və gölə açılan gözəl panoramı göstərəndə Mixael bəzən ağlayır".

Şumaxerin keçmiş meneceri, vaxtilə gənc Mixaelin istedadına diqqət yetirərək onun yeddi dəfə çempion titulu qazanmasında mühüm rol oynamış Villa Venera bu yaxınlarda etiraf edib ki, artıq dostunun səhhətinin bərpa olunacağına ümid bəsləmir.



Veber "Bunte" jurnalına müsahibəsində deyib: "Mən uzun sürən matəmdən sonra Mixaeldən əlimi üzmüşəm. O, mənim əziz və sədaqətli dostum olub. Birlikdə keçirdiyimiz 20 il mənim həyatımda ən yaxşı illər olub".

Bu yaxınlarda KİV-də belə bir məlumat yayıldı ki, Mixael Şumaxerin ailəsi İspaniyanın Malyorka şəhərində yerləşən, dəbdəbəli vaxtilə Madridin "Real" klubunun prezidenti Florentino Peresə məxsus olmuş malikanəyə köçməyə hazırlaşır. Lakin az sonra bu şayiələr təkzib edildi.

Xatırladaq ki, 2013-cü ildə Şumaxer Fransanın Meribel dağ-xizək kurortunda xizək sürərkən yıxılaraq başından ağır zədə alıb və yarım il koma vəziyyətində qalıb. O vaxtdan bəri onun ailəsi saysız-hesabsız şayiələr fonunda Mixaelin səhhəti ilə bağlı real vəziyyəti gizlədir və onun şəxsi həyatı ilə bağlı hüquqlarını pozmamağı xahiş edir.

## Maradona "Dinamo"dan ayrılacaq

Dünya futbolunun əfsanəsi Dieqo Maradona Belarusun "Dinamo" (Brest) klubundan ayrıla bilər. "Dinamo" futbol klubunun idarə heyətinin sədri vəzifəsində çalışan Maradona uzun müddətdir ki, Belarusa gəlmir. Bu səbəbdən onun klubda qalmayacağı gözlənilir. Qeyd edək ki, argentinalı futbol əfsanəsinin "Dinamo" klubu ilə 3 illik müqaviləsi var.

Milli Olimpiya Komitəsinin kollektivi Azərbaycan Turizm Universitetinin rektoru İlham Mədətova, anası

**İqlimə Mədətovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Gənclər və İdman Nazirliyinin kollektivi Azərbaycan Turizm Universitetinin rektoru İlham Mədətova, anası

**İqlimə Mədətovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kollektivi Azərbaycan Turizm Universitetinin rektoru İlham Mədətova, anası

**İqlimə Mədətovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Respublika Yüksək İdman Ustalığı Məktəbinin kollektivi Azərbaycan Turizm Universitetinin rektoru İlham Mədətova, anası

**İqlimə Mədətovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin kollektivi Azərbaycan Turizm Universitetinin rektoru İlham Mədətova, anası

**İqlimə Mədətovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi Azərbaycan Turizm Universitetinin rektoru İlham Mədətova, anası

**İqlimə Mədətovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54;
564-74-19

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.